## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı ildən-ilə artmaqdadır. Bütövlükdə, bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır.**

## “İslam dövləti”nin narkobiznesi: hədəf Azərbaycandır



Səhifə ⇨ 6




Səhifə ⇨ 9

## Zəngəzur dəhlizi “Yeni ipək yolu”nun önəmli hissəsi ola bilər


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 73 (30189) 9 aprel 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Azərbaycan – Gürcüstan təmasları intensivləşir

## *Zaman, məkan dəyişilsə də, mövqelər eynidir*

**Əvvəllər Azərbaycan Prezidentinin hansısa xarici ölkəyə səfəri beynəlxalq aləmdə maraqla gözlənilir və diqqətlə izlənilirdi. Bu da səbəbsiz deyildi. Hamı bilirdi ki, İlham Əliyev yeni regional reallıqların qəbulu üçün istənilən səfərdə mütləq yeni tezislərlə çıxış edəcək. İndi isə dövlət başçımızın xarici ölkə siyasətçilərini qəbul etməsi də səfərləri kimi diqqət mərkəzində olur. Hamı bilir ki, Azərbaycan Prezidentinin çıxış, müsahibə və bəyanatlarında mütləq region və ya dünya üçün mühüm əhəmiyyət kəsb edən məqamlar olacaq.**



Dövlət başçımızın aprelin 7-də Qəbələdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul etməsini və müzakirələrdən sonra mətbuata birgə bəyanat vermələrini maraqla gözləyənlər də haqlı idilər. Elə cənab Prezident və dost ölkənin Baş naziri də həmin məqamı maraqla gözləyənləri intizarda qoymadılar. Azərbaycan Prezidenti xatırlatdı ki, bu gün bir çox önəmli məsələlər müzakirə olunmuşdur və biz gələcək fəaliyyətimizi də əldə edilmiş razılaşmalar əsasında quracağıq.

Təbii ki, qeyd olunan razılaşmaların əsas istiqamətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirakdan, Asiya və Avropa iqtisadiyyatlarını qovuşduran nəqliyyat dəhlizlərinin səmərəsinin artırılmasına töhfə verməkdən ibarətdir. Ancaq dövlət başçımız xatırlatdı ki, Gürcüstan – Azərbaycan əlaqələri bu sahələrlə məhdudlaşmır: “Bizim əlaqələrimiz bir çox sahələri əhatə edir – müdafiə sənayesi, təhsil, mədəniyyət, turizm, texnologiyalar, kənd təsərrüfatı”. Fikrimizcə, son zamanlar müxtəlif istiqamətlərdən təhdid eşidən Azərbaycan üçün bu əməkdaşlıq sahələrinin əhəmiyyətini sadalamağa ehtiyac qalmır.

**(ardı 4-cü səhifədə)**

## Azərbaycan vətəndaşları Ərdoğanı qalib görmək istəyir



Səhifə ⇨ 9

## Tehran–İrəvan cütlüyünün məkrli oyunları Bakıya yönəlib



Səhifə ⇨ 6

## Vardanyanın Ermənistan hakimiyyətinə xəbərdarlığı: ananız ağlayacaq!

Səhifə ⇨ 4

# Milli maraqlarımızı ortaqlaşdıran tarixi görüş və müzakirələr

Səhifə ⇨ 5



Səhifə ⇨ 3

Azərbaycanda İranın təxribatçı və təhrikçi əməlləri yolverilməzdir

## Talış kəndi didərgin övladlarını qoynuna alıb



Səhifə ⇨ 8



Səhifə ⇨ 6

Hayastan Qafqazın Suriyasına çevrilə bilər

## Ərzaq təhlükəsizliyi strateji məqsəddir



Səhifə ⇨ 7

# Şuşa ilə İsfaranın qardaşlaşması erməniləri niyə qıcıqlandırır?

Səhifə ⇨ 4



Səhifə ⇨ 5

Laçın yolu təcavüz qapısı ola bilməz

## Rusiya yeni düzən, Ukrayna qələbə sevdasında



Səhifə ⇨ 10



Səhifə ⇨ 11

Milli kinomuzun ilk qaranquşları

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əsasında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsi yaradılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2049 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.1-ci bəndin birinci cümləsindən “(yerli baş idarə, idarələr, şöbələr və bölmələr)” və “, habelə Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti” sözləri çıxarılsın;

2.2. 5.5-ci bəndin birinci cümləsində “bir birinci müavini və üç müavini” sözləri “müavinləri” sözü ilə əvəz edilsin;

2.3. 5.6.9-cu yarımbənddə “yerli baş idarə, idarə, şöbə və bölmələrin” sözləri “strukturuna daxil olan qurumların” sözləri ilə əvəz edilsin;

2.4. 5.6.11-ci yarımbənddə “yerli baş idarə, idarə, şöbə və bölmələrin” sözləri “strukturuna daxil olan” sözləri ilə əvəz edilsin;

2.5. 5.7-ci bəndin birinci cümləsindən “, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisindən” sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın təsdiq edilməsi barədə” 2000-ci il 15 iyul tarixli 371 nömrəli, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli, “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2005-ci il 9 avqust tarixli 277 nömrəli, “Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 3 mart tarixli 391 nömrəli, “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə” 2019-cu il 21 yanvar tarixli 482 nömrəli və “Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında” 2019-cu il 11 aprel tarixli 622 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 511; 2003, № 10, maddə 546; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2017, № 3, maddə 353; 2021, № 1, maddə 35, № 6 (I kitab), maddə 567; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2053 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndin “İcraçı orqan” sütununda “Milli Televiziya və Radio Şurası” sözləri “Audiovizual Şura” sözləri ilə əvəz edilsin;

1.2. 2.9-cu bəndin “Tədbirlər” sütununda “verilişləri” sözü “proqramları” sözü ilə əvəz edilsin.

**2.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 590; 2005, № 2, maddə 69; 2006, № 11, maddə 947; 2008, № 9, maddə 798; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 9, maddə 995; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 12 (I kitab), maddə 2542; 2020, № 5, maddə 539, № 6, maddə 715) 6-cı hissəsi ləğv edilsin.

**3.** “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382, № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12, maddə 2322; 2018, № 6, maddə 1237; 2019, № 7, maddə 1215; 2020, № 8, maddə 1033; 2022, № 5, maddə 471, № 8, maddələr 840, 894; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 yanvar tarixli 2005 nömrəli və 4 fevral tarixli 2022 nömrəli fərmanları) 2.7-ci bəndində “Milli Televiziya və Radio” sözləri “Audiovizual” sözü ilə, “öz səlahiyyətləri daxilində” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172; 2012, № 2, maddə 68, № 5, maddə 426, № 9, maddə 851, № 12, maddə 1248; 2013, № 9, maddə 1063; 2014, № 9, maddə 1033; 2016, № 2 (II kitab), maddə 236; 2017, № 3, maddə 383, № 10, maddə 1782, № 11, maddə 2022; 2018, № 5, maddə 971; 2019, № 3, maddə 395; 2020, № 1, maddə 12, № 10, maddə 1246, № 11, maddə 1363; 2021, № 7, maddə 743; 2022, № 12, maddə 1442) ilə təsdiq edilmiş “Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı”nın 2.9-cu bəndində “Milli Televiziya və Radio” sözləri “Azərbaycan Respublikası Audiovizual” sözləri ilə əvəz edilsin.

**5.** “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 yanvar tarixli 482 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 72; 2020, № 3, maddə 242; 2021, № 6 (I kitab), maddə 573; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2052 nömrəli Fərmanı) 3.12-ci bəndində “Milli Televiziya və Radio” sözləri “Audiovizual” sözü ilə əvəz edilsin.

**6.** “Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12, № 4, maddə 424, № 6, maddə 708; 2021, № 2, maddə 119, № 5, maddə 452, № 6 (I kitab), maddə 574; 2022, № 2, maddə 116, № 4, maddə 305, № 8, maddə 848, № 12, maddə 1436) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 – “Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı”nın 22-ci hissəsində “Milli Televiziya və Radio” sözləri “Azərbaycan Respublikası Audiovizual” sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 2 – “Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı”nın 54-cü hissəsində “Milli Televiziya və Radio” sözləri “Azərbaycan Respublikası Audiovizual” sözləri ilə əvəz edilsin;

6.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 – “Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı”nın 14-cü hissəsində “Milli Televiziya və Radio” sözləri “Azərbaycan Respublikasının Audiovizual” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2006-cı il 18 aprel tarixli 391 nömrəli və “Ədliyyə orqanlarının inkişafı haqqında” 2006-cı il 17 avqust tarixli 446 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431, № 5, maddə 860, № 6, maddə 1044, № 12, maddə 1927; 2020, № 7, maddə 882; 2021, № 5, maddə 439; 2022, № 1, maddə 29, № 4, maddə 332, № 8, maddə 871) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.14-cü bənddən “mətbu nəşrlərin təsis edilməsi barədə müraciətlərin uçotunu aparmaq,” sözləri çıxarılsın;

1.2. 9.36-cı bənddə “kütləvi informasiya vasitələrində” sözləri “mediada” sözü ilə əvəz edilsin;

1.3. 10.9-1-ci bənd ləğv edilsin.

**2.** “Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671; 2007, № 12, maddə 1223; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 80, № 7, maddə 622; 2012, № 12, maddə 1273; 2016, № 11, maddə 1826; 2017, № 6, maddə 1072, № 11, maddələr 2009, 2042; 2022, № 11, maddə 1267) 8-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci abzasda “Milli Televiziya və Radio” sözləri “Azərbaycan Respublikasının Audiovizual” sözləri ilə və “dövlət qeydiyyatına alınmaq” sözləri “Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi” sözləri ilə əvəz edilsin;

2.2. ikinci abzasda “dövlət qeydiyyatına alınan” sözləri “həmin qurumlar tərəfindən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün təqdim olunan” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda və 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 fevral tarixli 2018 nömrəli və 30 mart tarixli 2079 nömrəli fərmanları) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 12.0-cı bəndinə “onun müavinləri,” sözlərindən sonra “Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin rəisi, onun müavini,” sözləri əlavə edilsin və həmin bənddən “, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2051 nömrəli və 30 mart tarixli 2079 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 75-ci hissəsinə “onun müavinləri,” sözlərindən sonra “Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin rəisi, onun müavini,” sözləri əlavə edilsin və həmin hissədən “, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 8 fevral tarixli 277 nömrəli, “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2002-ci il 11 may tarixli 699 nömrəli, “Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” 2005-ci il 11 aprel tarixli 220 nömrəli, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2005-ci il 3 iyun tarixli 245 nömrəli və “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 104 nömrəli fərmanlarının ləğv edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 277 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 92; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 24; 2008, № 5, maddə 359; 2009, № 8, maddə 627; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 11, maddə 1312; 2016, № 4, maddə 675, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 230, № 3, maddə 393) ləğv edilsin.

**2.** “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 may tarixli 699 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 266) ləğv edilsin.

**3.** “Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 591; 2005, № 3, maddə 173, № 4, maddə 295; 2008, № 10, maddə 888; 2009, № 2, maddə 78; 2010, № 3, maddə 189; 2011, № 2, maddə 79; 2015, № 2, maddə 118, № 9, maddə 993; 2018, № 5, maddə 949; 2020, № 5, maddə 539, № 6, maddə 715) ləğv edilsin.

**4.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 11 aprel tarixli 220 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 295; 2007, № 8, maddə 766, № 11, maddə 1114) ləğv edilsin.

**5.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 245 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 482) ləğv edilsin.

**6.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 104 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 416; 2015, № 9, maddə 994) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2019-cu il 22 iyul tarixli 1334 nömrəli, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 22 iyul tarixli 2173 nömrəli, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli və "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2701; 2021, № 6 (I kitab), maddə 606; 2022, № 5, maddə 532, № 8, maddə 912; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3781 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.1.9.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "Digər icraçı qurumlar" sütununda "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu" sözləri "Medianın İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. 7.4.1.1 – 7.4.1.6-cı yarımbəndlərin "Digər icraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

1.3. 7.4.1.2-ci və 7.4.1.5-ci yarımbəndlərin "Tədbirin adı" sütununda "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276; 2020, № 12 (III kitab), maddə 1537; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3781 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.4.21-ci, 4.4.23-cü və 4.4.30-cu yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

2.2. 4.4.28-ci yarımbəndin "Tədbirin adı" sütununda "televiziya və radio proqramlarında xüsusi verilişlərin" sözləri "xüsusi televiziya və radio proqramlarının" sözləri ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

2.3. 4.4.31-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

2.4. 4.4.38-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 937; 2022, № 5, maddə 530; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın "4. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.2.1-ci və 4.8.4-cü yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

3.2. 4.2.3-cü yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

3.3. 4.2.6-cı yarımbəndin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələrinin" sözləri "Medianın" sözü ilə əvəz edilsin;

3.4. 4.8.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1374; 2021, № 8, maddə 946; 2022, № 5, maddə 534; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın "5. Fəaliyyət Planının icrası üçün Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.1.13-cü və 5.3.10-cu yarımbəndlərin "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.2. 5.3.9-cu yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə, "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.3. 5.4.3-cü yarımbəndin "Tədbirin adı" sütununda "verilişləri" sözü "proqramları" sözü ilə, "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.4. 5.4.13-cü yarımbəndin "Tədbirin adı" sütununda "teleradio" sözü "audiovizual media" sözləri ilə, "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.5. 5.4.17-ci yarımbəndin "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Medianın İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1375; 2021, № 6 (I kitab), maddə 607; 2022, № 5, maddə 534; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın "12. Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 12.2.5-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

5.2. 12.6.4-cü yarımbəndin "İcraçılar" sütununda "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli 832 nömrəli, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli, "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 6 avqust tarixli 429 nömrəli, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli və "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2013-cü il 9 aprel tarixli 2837 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 409; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2020, № 8, maddə 1064; 2021, № 1, maddə 81; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 24-cü hissənin "Tədbirlər" sütununda "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə, "İcra orqanları" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

1.2. 36-cı hissənin "Tədbirlər" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "İcra orqanları" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1138; 2008, № 1, maddə 9, № 3, maddə 168; 2009, № 12, maddə 1043; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 257; 2021, № 1, maddə 77; 2022, № 12, maddə 1512; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 47-ci hissəsinin "Tədbirlər" sütununun birinci cümləsində "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə, ikinci cümləsində "KİV" akronimi "Media" sözü ilə və "İcra orqanları" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

**3.** "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 637; 2011, № 12, maddə 1161; 2013, № 6, maddə 703, № 9, maddə 1088; 2014, № 4, maddə 404, № 7, maddə 864; 2016, № 4, maddələr 738, 750; 2018, № 1, maddə 99; 2019, № 9, maddə 1487; 2020, № 3, maddə 304) 1-ci hissəsində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217; 2012, № 12, maddə 1322; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2018, № 11, maddə 2378; 2019, № 2, maddə 257, № 5, maddə 877; 2020, № 8, maddə 1064; 2021, № 6 (I kitab), maddə 607, № 8, maddə 947; 2022, № 8, maddə 909; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissədə "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

4.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" üzrə:

4.2.1. 2.22-ci bəndin birinci abzasında "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə, ikinci abzasında "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

4.2.2. 6.3-cü bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə, "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 391; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2022, № 8, maddə 909, № 12, maddə 1515; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın "6. Dövlət Proqramının icrasına dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 6.2.3-cü yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

5.2. 6.5-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

5.3. 6.5.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

5.4. 6.5.2-ci yarımbəndin "Tədbirin adı" sütununda "verilişlərində, yazılı və elektron mətbuatda" sözləri "proqramlarında, çap və onlayn mediada" sözləri ilə, "teleradio şirkətləri və kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

5.5. 6.5.4-cü yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "verilişlərinin" sözü "proqramlarının" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2023-cü il**

## Xarici işlər nazirləri arasında telefon danışığı olub

**Aprelin 7 və 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.**

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən verilən məlumata görə, tərəflər qarşılıqlı şəkildə hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşdıqlarını bildiriblər.

Telefon danışığı zamanı, iki ölkə arasında mövcud olan narazılıq və anlaşılmazlıqlarla bağlı müfəssəl müzakirə aparılıb. Anlaşılmazlıqların aradan qaldırılması üçün danışıqların davam etdirilməsinin vacibliyi vurğulanıb.

Azərbaycanla İran arasında mövcud olan layihələrin icrası istiqamətində iş aparılmasına dair razılıq ifadə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın milli maraqlarına əsasən həyata keçirdiyi müstəqil xarici siyasətinə və region ölkələri ilə ikitərəfli münasibətlərinə hörmətlə yanaşılmasının vacib olduğunu diqqətə çatdırıb.

Nazirlər qarşılıqlı təmasların davam etdirilməsinin vacib olduğunu qeyd ediblər.

***"Xalq qəzeti"***

## Azərbaycanda İranın təxribatçı və təhrikçi əməlləri yolverilməzdir

**İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə "persona non-grata" elan edilməsi ilə bağlı İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin 7 aprel tarixli şərhi qərəzli və emosionaldır.**

Bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə sözügedən məsələyə dair şərhində bildirib.

"Azərbaycan tərəfindən görülmüş tədbirin qonşuluq prinsiplərinə zidd olduğu barədə İran tərəfinin iddiası ilə bağlı bildiririk ki, Azərbaycan ərazisində qanunsuz fəaliyyət qonşuluq əlaqələri ilə uzlaşmır və cavab olaraq atılan addımlar Vyana Konvensiyası çərçivəsindədir", - deyə Ayxan Hacızadə bildirib.

Onun sözlərinə görə, İslam həmrəyliyi dindən siyasi məqsədlər üçün istifadəni, müsəlman qonşuların daxili işlərinə müdaxiləni istisna edir, eyni zamanda, digər müsəlman ölkənin ərazilərinin hərbi işğalına dəstəyi ehtiva etmir.

Diqqətə çatdırılıb ki, Azərbaycan öz qonşuları ilə münasibətləri daim qarşılıqlı prinsipi əsasında qurub və bu münasibətlərin pozulmasında heç zaman maraqlı olmayıb. Azərbaycan tərəfindən görülən adekvat tədbirlər hər zaman təxribatçı və təhrikçi addımlara cavab olub.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

## TÜRKSOY-un toplantısı Şuşada başa çatdı

**Aprelin 8-də Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində Azərbaycan Respublikası Prezidenti yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədrliyi çərçivəsində sözügedən Milli Komissiyanın Daimi Katibliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti və universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə milli komissiyalarının 9-cu iclasının bağlanış mərasimi keçirilib.**



Bağlanış mərasimində TÜRKSOY-un üzv ölkələri-ni, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan və Özbəkistan, eləcə də Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Ölkələrin Parlament Assambleyası, Macarıstan və Monqolustanı təmsil edən 35 iştirakçıya sertifikat və hədiyyələr təqdim olunub.

Bağlanış mərasimindən sonra xarici qonaqlar Şuşa şəhəri ilə tanış olublar. Səfər "Qarabağ" muğam qrupunun təqdim etdiyi konsert proqramı ilə sona çatıb.

***"Xalq qəzeti"***

## Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin işgüzar səfəri başa çatıb



**Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına işgüzar səfəri aprelin 8-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir İrakli Qaribaşvili rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Azərbaycan – Gürcüstan təmasları intensivləşir



*Azərbaycanla, Azərbaycan xalqı ilə bu sıx dostluq və qardaşlıq münasibətləri olduqca önəmlidir. Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik və o layihələr bizim xalqları, ölkələri daha da sıx birləşdirdi.*

**İrakli QARİBAŞVİLİ,**
**Gürcüstanın Baş naziri**
**Qəbələ, 7 aprel 2023-cü il**

**(əvvəli 1-ci səhifədə)**

Elə Gürcüstanın Baş naziri də bu səfərin nəticələri arasında sırf siyasi çalarların olduğunu etiraf etdi. İrakli Qaribaşvili xatırlatdı ki, biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illərdə də bu, belə olacaqdır. Biz dəfələrlə bu mühüm layihələri qeyd etmişik. Dost ölkənin rəsmisi əlavə edib ki, biz regiondakı vəziyyəti də müzakirə etdik (region mətbuatı elə bu cümləni gözləyirdi): "Ukraynadakı vəziyyət müzakirə edildi, burada risklər, çağırışlar mövcuddur. Elə çağırışlar ki, onlar İkinci Dünya müharibəsindən sonra mövcud deyildi. Bizim başlıca amalımız sülh və sabitliyin təmin edilməsidir. Çünki bunlar olmasa, heç bir inkişaf və firavanlıqdan söhbət gedə bilməz".

Gürcüstan rəsmisi xüsusilə vurğuladı ki, bizim əsas məqsədimiz regionda sülhü və sabitliyi təmin etməkdir. Regionda daha çox layihələr həyata keçirməliyik və biz işimizi gözəl qardaşlıq mühitində irəli aparacağıq. Fikrimizcə, onun sülh və sabitlik haqqında dediklərinin konkret ünvanları da var idi. Hətta Ermənistanın müxalifət mətbuatı bu səfərdən əvvəl yazırdı ki, Bakı ilə Tbilisi regiondakı vəziyyəti müzakirə edəcəklər, biz isə kiminləsə, hansısa müzakirəni apara bilmirik.

Bu məqamda xatırladaq ki, rəsmi Tbilisi daim Azərbaycanın maraqlarının qorunmasına çalışmışdır. Dövlət başçımızın Qəbələdə xatırlatdığı kimi, təxminən altı ay əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri çərçivəsində gürcü mütəxəssislər bizə əsl dost jesti etmişdilər. Belə ki, Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ötən il oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında "Qarabağ xanlığının irsi" sərgisi ilə tanış olmuşdular. Məlum olduğu kimi, sərgidə "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabı təqdim edilmişdi.

O zaman türk ekspertlərdən biri yazmışdı ki, bu fakt gürcülərin Azərbaycanla dostluğu sübut etmək cəhdi deyil, bu, gürcülərin erməni saxtakarlığını ifşa etməsi və həmin ifşanın dünya miqyasına çıxarılması cəhdidir.

Xatırladaq ki, sərgidə nümayiş etdirilən fotolar "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabından seçilərək götürülmüş artefaktlar əsasında hazırlanıb. Onların arasında Qarabağ xanlığına aid edilən bayrağın məlum olan ilk təsvirini, Qarabağ xanları sülaləsində qorunmuş Şah İsmayılın qalxanı, qədim xalçaları, Sərdar məscidinin və onun fasadının dekorasiya plitələrini, həmçinin XIX əsr Şuşa şəhərinin görüntülərini, XIX əsrin sonu – XX əsrin əvvəllərində Sərdar xan sarayının fasadını və daxili görünüşünü, XIX əsrə aid at yəhərini, iki tar və üçsimli kamançanı əks etdirən fotolar, Mirzə Qədim İrəvaninin müəllifi olduğu Həsən Qulu xan Qacarın, Fətəli şah Qacarın portretləri xüsusi maraq doğururdu.

Mütəxəssislərin fikrincə, nadir mədəni irsimizin göstəricisi olan nəşrdə kataloqlaşdırılmış bu kolleksiya Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qarabağ xanlığına, onun zəngin mədəni irsinə beynəlxalq marağın artmasına töhfə verəcək.

Bütün bunlar isə ermənilərin başına daş yağdırmaq effektinə bərabər hadisə idi. Ancaq həmin "daşı" bundan əvvəl ermənilər özləri öz başlarına yağdırıblar. Məhz həmin "daş" yağıntısı"na görə də bu işğalçı, terrorçu və təxribatçı ölkə gündən-günə təklənir və kimsəyə lazım olmayan topluma çevrilir. Azərbaycan isə cənab İrakli Qaribaşvilinin Qəbələdə şahidi olduğu kimi gündən-günə inkişaf edir, dövlətin gücü artır, əhalinin rifahı durmadan yaxşılaşır, bizimlə dost olmağa çalışanların sırası genişlənir. Dostların var olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Şuşa ilə İsfaranın qardaşlaşması erməniləri niyə qıcıqlandırır?

**Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana rəsmi səfəri zamanı ölkənin İsfara şəhəri ilə Şuşa arasında qardaş şəhər münasibətləri haqqında protokol imzalanıb. Bu hadisə Ermənistan cəmiyyətində böyük reaksiyalar doğurub. Haylar məsələ ilə bağlı etiraz bildirmək bir yana, aşkar təxribatçı fikirlər də səsləndiriblər. Biçarələr özlərinin misilsiz həyasızlıqlarını daha yüksək fazaya gətiriblər.**






Qeyd edək ki, əvvəllər Şuşa ilə Özbəkistanın Xivə, Türkiyənin Kayseri və Serbiyanın Novi Pazar şəhərləri qardaşlaşmışdı. Maraqlıdır ki, erməni siyasətçiləri buna bir o qədər də önəm verməmişdilər. Bəlkə də diqqətlərində olmuşdu, amma səsləri çıxmamışdı. Nə deyəcəkdilər ki?

Necə deyərlər, növbə Tacikistana çatanda isə hay-küy salmağa başlamaları heç də təsadüfi deyil. İzah edək nə üçün? Erməni başbilənlər bildirirlər ki, taciklər etnik baxımdan Ermənistana və İrana yaxındırlar. Onların fikrincə, bu yaxınlıq, yəni farsdilli olmaq Tacikistanı da Azərbaycana qarşı münaqişəyə "məcbur" etməlidir. Bu qədər primitiv yanaşma, belə bir bəsit düşüncə və təfəkkürlə o böyüklükdə iddiaya düşmək əbəsdir.

Erməni başbilənlər onu da deyirlər ki, farsdilli Tacikistanın türkdilli Azərbaycana doğru geosiyasi dönüşü təəccüblüdür. Çünki bu tendensiya Tehran və Bakı arasında münasibətlərin kəskinləşməsi fonunda baş verir. Əlbəttə, Azərbaycan–İran münasibətlərində gərginlik var. Ancaq Tacikistan bu vektordan tamamilə uzaqdadır. Bu ölkənin yaxından-uzaqdan Tehranın orbitinə hər hansı aidiyyatı yoxdur.

Digər tərəfdən, İran Tacikistanın timsalında Orta Asiya müstəvisində özü üçün hansısa maraqlar formalaşdıra bilər, ancaq bu, o demək deyil ki, rəsmi Düşənbənin müstəqil xarici siyasətindəki hansısa seqmentin İran üçün açıq qıcıq predmetinə çevrilməsi mümkündür. Həm də ona görə mümkün deyil ki, ortada Rusiya amili var. Görünür, erməni siyasi istablişmenti bütün məsələlərdə olduğu kimi, burada da Moskvanı nəzərə almaq məntiqindən uzaqdır. Əlbəttə, onların yanaşmalarında, eyni zamanda, Tacikistanı bir dövlət kimi "qapazaltı" saymaq meyili də duyulmaqdadır.

Ermənistan siyasətçilərinin qeyd etdiyimiz mövzuda Düşənbəyə ünvanlanmış daha bir həyasız qınağı da var. Təxminən belə: Tacikistanın Xarici İşlər Nazirliyi bilmir ki, Qarabağın hüquqi statusu hələ müəyyən edilməyib? Ardınca isə bu məqam qabardılır: belə çıxır ki, Ermənistanla eyni hərbi-siyasi təhlükəsizlik platformasında – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsilçiliyinə baxmayaraq, Tacikistan öz müttəfiqinə qarşı təcavüzü dəstəkləyir və təşviq edir.

Göründüyü kimi, erməni həyasızlığı sərhəd tanımır. Çünki ölkənin özü KTMT-yə hər cür həqarət yağdırmaqdadır. Çox uzağa getməyək, Ermənistan hakimiyyəti ötən ilin noyabrında İrəvandakı sammitinə Tacikistan prezidentinin də qatıldığı KTMT-yə aşkar hörmətsizlik eləmişdi. 2023-cü ildə ölkə iqtidarının quruma ünvanlanmış saymazyana münasibətləri sıralanmaqdadır. Belə olan halda qəfil müttəfiqliyin yada düşməsi siyasi riyakarlıqdan başqa bir şey deyil.

Bütün bunlar azmış kimi, erməni siyasilər dünyanın müxtəlif bölgələrində yaşayan tacikləri şantaj etməyi də unutmurlar. Onlar beynəlxalq miqyasda, o cümlədən, Rusiyada güclü erməni diaspor təşkilatlarının mövcudluğunu qabardırlar. Bu diasporun həm Tacikistan dövlətinə, həm də tacik diasporuna həmişə dəstək olduğunu başa qaxır və Şuşanın Tacikistanın İsfara şəhəri ilə qardaşlaşmasının münasibətlərə mənfi təsir göstərəcəyini önə çəkirlər.

Təbii ki, istənilən xalqın diasporu təmsil etdiyi ölkənin digər dövlətlə münasibətlərinə təsir göstərmək gücündədir. Bu baxımdan erməni diasporu da irəli gedib. Ancaq hazırkı məqamda şantaj elementlərinin gündəmə gəlməsi erməni diasporunun mövcud olduğu ölkələrdə tacikləri cəzalandırmaq kimi kriminal hərəkət və davranışları dövriyyəyə gətirəcəyinə eyhamdır. Haylar hesab edirlər ki, belə cəza tədbirləri ilə Tacikistan dövlətinə təsir göstərmək mümkündür. Başqa hansı rıçaqları var ki? Bir daha deyək ki, erməni həyasızlığı, həqiqətən, sərhəd tanımır.

***R.AMİN***

**"Ermənistanda erməni qadınlarının bədbəxt olduğunu düşünən insanlar var. Bu, doğru deyil. Erməni qadınları, həqiqətən, sevilir, xoşbəxtliyin və ailə dəyərlərinin nə olduğunu çox yaxşı bilirlər. Başqa bir şey də budur ki, qadınların cəmiyyətimizdəki rolu lazımi səviyyədə qiymətləndirilmir. Arzu edirəm ki, kişilər qadınları qorusun və qiymətləndirsinlər". Bu fikirlər hər hansı qadın hüquqları ilə bağlı təşkilatın rəhbərinə, yaxud hüquq müdafiəçisinə məxsus deyil. Müəllifi Ruben Vardanyandır. O Vardanyan ki, bir neçə ay əvvələdək Azərbaycan əleyhinə basıb – kəsirdi. Öz aləmində Qarabağdakı separatçı rejimi ölkəmiz qarşı birləşdirdi. Ay, nə bilim, milli ruh, ləyaqət və mənlik hissi formalaşdırırdı. Bir sözlə, Ruben təfəkkürünün mücərrəd guşəsində bəslədiyi ucuz populizm elementlərini bir-birinə qatmışdı.**

# Vardanyanın Ermənistan hakimiyyətinə xəbərdarlığı: ananız ağlayacaq!

## *Rubenin "Facebook" statusu, erməni siyasətindəki rəzillik və subliminal mesaj*



Qarabağdakı separatçı rejimin rəhbəri Araik Arutyunyan Vardanyanı tutduğu oyuncaq "dövlət naziri" postundan uzaqlaşdırdıqdan sonra gözlənilirdi ki, Ruben özünün siyasi fəaliyyətini Ermənistan daxilinə, belə demək mümkünsə, transformasiya edib baş nazir Nikol Paşinyana qarşı öncül müxalifik uğrunda mübarizəyə girişəcək. Yəni, düşünmək olardı ki, Vardanyan hazırkı iqtidara münasibətdə sərt mövqe tutanları öz ətrafında birləşdirərək ciddi işlər gerçəkləşdirəcəkdir. Nə qədər olmasa, onun arxasındakı Rusiya amili var axı.

Nəzərə alaq ki, Rubenin ötən ilin sentyabrından Qarabağda peyda olması bölgədəki separatçılığın Rusiya qanadının işə düşməsi anlamını verirdi. "Dövlət naziri"nin fikirləri elə fon yaradırdı ki, sanki, Moskva Qarabağdakı hər hansı müsbət dinamikaya özünün sərt alternativini ortaya qoyaraq vəziyyəti destabilləşdirə bilmək potensialındadır. Daha doğrusu, bu düşüncədədir. Əslində, "plan" elə idi. Amma Azərbaycanın qətiyyətli mövqeyi, xüsusən ötən il dekabrın 12-dən başlayaraq, ekofəallarımızın və qeyri-hökumət təşkilatları təmsilçilərimizin Laçın-Xankəndi yolunda keçirdikləri aksiya bütün "ssenarini" alt-üst etdi. Nəticədə Vardanyan Qarabağ ermənilərinin həyatını ağırlaşdıran şəxs olaraq qəbul edilməyə başladı. Bu isə həm də Rusiyaya münasibətdə, ümumən, erməni cəmiyyətində hökm sürən antipatiyanı bir qədər də dərinləşdirdi. Nəhayət, A.Arutyunyan Rubeni "postundan" uzaqlaşdırdı.

Əlbəttə, keçmişə boylanmaq niyyətində deyilik. Məsələ R.Vardanyanın facebook səhifəsində yazdığı və diqqətə çatdırdığımız fikirlərindədir. Onu da bildirdik ki, həmin fikirlərin Rubenə məxsusluğunu bilməsəydik, elə sanardıq ki, onları yazan qadın hüquqları ilə məşğul olan hansısa qeyri-hökumət təşkilatının rəhbəridir. Başlıca vurğulanmalı məqam isə budur ki, Azərbaycana qarşı çıxmaq məqsədi güdən və nəhəng siyasətə burun soxan şəxs yekunda acınacaqlı duruma düşür. Özünə ciddi siyasətçi deyən birinin hazırkı potensialı baxımından erməni cəmiyyətinə verdiyi mesaj yalnız vardanyansayağı ola bilər. Bu mənada Ruben hazırda, bütövlükdə, erməni siyasətinin rəzilliyinin simvolu kimi meydana çıxır.

Ancaq nəzərə alsaq ki, Rubeni Qarabağa Moskvadan göndərmişdilər, Vardanyanın indi facebookda yazdıqları həm də onu bölgəyə dürtən dairələrin mənəvi və siyasi fiaskosudur. Diqqət yetirək, həmin dairələr heç nə edə bilmədilər, məqsədlərinə çatmağa müvəffəq olmadılar, axırda ortaya qoyduqları fiqur özünütəsdiq üçün qadınlarla bağlı sosial şəbəkə postu paylaşmaq məcburiyyətində qaldı. Başqa vasitə ilə gündəmə gəlmək yolu yoxdur və Vardanyanın siyasi qısırlığı, həm də onun arxasında dayanan qüvvənin eyni vəziyyətə düşməsi deməkdir. Belə davam etsə, Ruben qadınlarla bağlı hansısa başqa kampaniyalara da qoşula bilər. Çünki adam boş-bekardır. Heç Ermənistan siyasətində də ona yer yoxdur.

Digər tərəfdən, Vardanyan, bütövlükdə, Azərbaycana qarşı çıxan, ölkəmizə münasibətdə barışmaz mövqe tutan erməni avantürizminin düşdüyü acınacaqlı durumun sifətidir, bariz obrazıdır. Bu obraz digərləri üçün də bir siqnal olmalıdır. Məsələ heç də onda deyil ki, beləlarinin hamısı Ruben kimi facebookda mənasız, yəni özlərinin siyasi amplualarına uyğun gəlməyən, iddiaları ilə bir araya sığmayan paylaşımlar etməklə miskin vəziyyətə düşəcəklər. Heç şübhəsiz, psixoz onların hərəsinə bir cür təsir göstərəcəkdir. Tam mümkündür ki, bəziləri siyasətdən qadın paltarı tikmək biznesinə girişsin, hərdən o paltarları öz üzərlərində sınaqdan çıxarmaları ehtimal ediləndir. Elə Paşinyanın komandasının da bu aqibətlə üzləşəcəyini söyləmək olar. Onsuz da hazırkı Ermənistan ictimai rəyi özünün anti-Azərbaycan ritorikası ilə aşağı-yuxarı Vardanyanın hazırda düşdüyü durumdadır.

Ancaq Rubenin fikirlərini çox da xərifliyə salmayaq. Adam heç də pis şeylərdən danışmır. Məsələn, Vardanyan onu da yazır ki, "analıq, qadın üçün ən böyük xoşbəxtlik və ən mühüm roldur. Biz hər şeyi etməliyik ki, gələcəkdə analar müharibələr nəticəsində övladlarını itirməsinlər". Göründüyü kimi, keçmiş separatçı "dövlət naziri" mətləbə gəlməyi də bacarır. Bəlkə də subliminal mesaj verir. Axı, müharibələr nəticəsində itirilən övladları doğan analardır. Erməni analarının əsrlərdir dünyaya gəlmiş övladlarına türklərin düşmən olduğunu beşikdəcə aşıladığı reallığı var. Bəzilərinə erməni xalqı adlandırılan qövm bu düşüncənin fəsadlarından əziyyət çəkməkdədir. Ancaq düşdüyü girdabı anlamayacaq dərəcədə xəstədir. Rus dissident yazıçısı, Nobel mükafatı laureatı Aleksandr Soljenitsin "Arxeopelaq QULAQ" əsərində repressiya törədən, minlərlə insanın qatilinə çevrilmiş insanları nəzərdə tutaraq, özünün məşhur ifadəsini işlətmişdi: Görəsən, onları hansı ana doğub?

Bəli, biz də soruşuruq ki, görəsən, Xocalıda yüzlərlə azərbaycanlını qanına-qəltan edən, onlara olmazın müsibətlər yaşadan və əməlləri ilə fəxr edən sarkisyanları, zori balayanları hansı analar doğmuşdu? Deməli, ilk növbədə analar, yəni onların timsalında ermənilərin genefondu dəyişməlidir ki, dünyaya belə cəlladlar gətirməsinlər. Elə Vardanyan kimilərini də, həmçinin. Yalnız belə olduğu təqdirdə Rubenin təbirincə desək, Ermənistanda qadınların bədbəxt olmadığını düşünənlər tapılacaq.

Digər tərəfdən, o da mümkündür ki, ruspərəst Vardanyan "biz hər şeyi etməliyik ki, gələcəkdə analar müharibələr nəticəsində övladlarını itirməsinlər" deməklə, hazırda rəsmi Moskva ilə daban-dabana zidd mövqe tutan, onu Cənubi Qafqazdan çıxarmaq istəyən qüvvələrin ruporuna çevrilmiş, Rusiya Prezidenti Vladimir Putinin həbsi ilə bağlı Roma Statunu ratifikasiya etməyə hazırlaşan Ermənistan hakimiyyətinə mesaj verir. Daha doğrusu, öz ağalarının mesajını çatdırır. Yəni, bizə qarşı çıxmağınız növbəti müharibədir və əgər müharibə olsa, ananız ağlayacaq. Nəzərə alaq ki, kriminal keçmişi olan Ruben məhz bu tipli mesajların verilməsi baxımından ən yaxşı vasitədir.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Milli maraqlarımızı ortaqlaşdıran tarixi görüş və müzakirələr

## Dövlət başçımızın I rübdəki 7 səfərindən 2-si Türkiyəyə olmuşdur



*Bizim mövqeyimiz birmənalıdır, açıqdır. Mən bunu bu gün Dövlət katibi Blinkenin təşəbbüsü ilə keçirilmiş tədbirdə də ifadə etmişəm: biz haqqın, ədalətin tərəfdarıyıq. Daxili işlərimizə kənar qüvvələrin qarışmasına heç vaxt imkan verməmişik və imkan verməyəcəyik. Qarabağ Azərbaycandır! Bunu mən müharibədən əvvəl demişəm. Bu gün bunu təkcə mən yox, bütün dünya nəinki deyir və görür.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Münxen, 18 fevral 2023-cü il**

**Son günlər lider və siyasətçilər barədə ən yaddaqalan ifadələrdən birini "Haber Qlobal"da çıxış edən türk ekspertdən eşitdim. O dedi ki, mənim bu fikirlərimdə hansısa dövlət başçısının xidmətlərini azaltmaq məqsədi yoxdur. Ancaq qətiyyətlə deyə bilərəm ki, cümhurbaşqanımız Rəcəb Tayyib Ərdoğanın öz xalqı qarşısındakı xidmətləri millət üçün qürurverici mənbə, sayın İlham Əliyevin Azərbaycan naminə gördüyü işlər isə fədakarlıq kimi qiymətləndirilməlidir.**

Allaha şükürlər olsun ki, 2023-cü ilin birinci rübünü cəmiyyət həyatının bütün sahələrində özünəməxsus uğurlarla başa vurduq. Bu uğurlar elə yaddaqalan oldu ki, hətta hansı istiqamətdəki göstəricilərimizin daha yüksək olduğunu söyləməkdə də çətinlik çəkirik. Çünki sosial-iqtisadi uğurlarımız da sevindiricidir, siyasi diplomatik fəaliyyətimiz də. Ordu quruculuğundakı yeni faktlarımız da qürurvericidir, Silahlı Qüvvələrimizin göstərdiyi qətiyyət də.

Ancaq biz bu yazını cənab Prezidentin fəaliyyətinin başqa bir istiqamətinə – xarici səfərlər məsələsinə həsr edirik. Bəzi ekspertlər dövlət başçımızın son üç aydakı yeddi xarici səfərinin ikisinin Türkiyəyə, ikisinin isə Almaniyaya reallaşdırılmasında hansısa bir rəmzi məna olmadığını söyləyirlər. Bəlkə də elədir. Ancaq zənnimcə, cənab Prezidentin qısa müddətdə iki dəfə Türkiyəyə, iki dəfə isə Almaniyaya səfər etməsinin rəmzi mənası o deməkdir ki, biz Türk dünyasının daha möhtəşəm sabahı üçün atılan qətiyyətli addımların ən fəal iştirakçılarından olsaq da, Avropa da bizim üçün həmişə olduğu kimi, mühüm önəm kəsb edir.

Yeri gəlmişkən, dövlət başçımızın Almaniyaya səfərindən əvvəl ermənilər böyük məmnunluq və ağızdolusu danışırdılar ki, Berlin bizim Qarabağdakı mövqelərimizi dəstəkləyir. Cənab Prezidentin məlum səfərindən sonra isə hamıya məlum oldu ki, ermənilər bu məsələdə də yalan və uydurmalardan əl çəkə bilmirlərmiş.

### İlin ilk səfəri Asiya ölkəsinə oldu

Dövlət başçımız yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında "Əbu-Dabi Dayanıqlılıq Həftəsi"nin rəsmi açılış mərasimindəki çıxışında qeyd etdi ki, biz Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi biz hələ bir neçə il əvvəl təmin etmişik: "Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu, onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

Cənab Prezident xatırlatdı ki, bizim bu istiqamətdəki potensialımız kifayət qədərdir. Onu da əlavə etdi ki, dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər "Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair" Saziş imzaladılar: "Bu saziş Avropa Komissiyası prezidentinin şahidliyi ilə imzalanmışdır".

### Davos İqtisadi Forumunda

Azərbaycan Prezidenti yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında moderatorun suallarını cavablandırarkən bir daha Azərbaycan həqiqətlərindən söz açıb: "Azərbaycan özünün qərbində olan qonşuları Gürcüstan və Türkiyə, şərqində isə Mərkəzi Asiya ilə gözəl münasibətlərə malikdir. Qərb və Şərq arasında təbii coğrafi bağlantıya malik olduğumuz üçün biz ötən illər ərzində nəqliyyat infrastrukturuna böyük sərmayə yatırmışıq".

Prezident Avrasiyada gedən bəzi ictimai-siyasi və hərbi prosesləri nəzərə alaraq xatırlatdı ki, məlum səbəblərdən mövcud və ənənəvi Şimal marşrutu vasitəsilə daşımalarda çətinliyə görə biz artıq Mərkəzi Asiyadan böyük həcmdə yükün istiqamətinin dəyişilməsini müşahidə edirik və bu, sadəcə, başlanğıcdır: "Həmçinin əlavə etmək istərdim ki, biz bu ildən etibarən artıq neçə illərdir neftin tranzitini təkcə Türkmənistandan yox, Qazaxıstandan da etməyə başlamışıq və bu dəhlizdən, həmçinin karbohidrogenlər üçün də istifadə etmək potensialı mövcuddur".

### Etibarlı tərəfdaş

Dövlət başçımızın yanvarın 30-da Macarıstana reallaşdırdığı rəsmi səfəri bu ölkənin Prezidenti Katalin Novak və Baş nazir Viktor Orbanla görüşləri, eləcə də, Azərbaycan–Macarıstan sənədlərinin imzalanması ilə yadda qalmışdı. Ancaq elspertlər Prezident İlham Əliyev və Baş nazir Viktor Orbanın mətbuata bəyanatlarla çıxış etməsini daha çox gözləyirdilər.

Dövlət başçımız həmin bəyanatında dedi ki, bu gün imzalanan strateji tərəfdaşlığın dərinləşməsinə dair Birgə Bəyannamə bu məsələyə dair imzalanmış ikinci sənəddir və bir daha onu göstərir ki, həqiqətən, Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşlardır.

Prezident xatırlatdı ki, enerji təhlükəsizliyi məsələləri bugünkü dünyada xüsusi əhəmiyyət kəsb edir və hesab edirəm ki, dünya gündəliyinin ön sıralarındadır. Azərbaycanın zəngin neft-qaz resursları imkan verir ki, uzun illər bundan sonra – təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa üçün etibarlı tərəfdaş olsun: "Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz belə də adlandırır: etibarlı tərəfdaş".

### Münxendə müsahibə

Prezident İlham Əliyev fevralın 18-də Münxendə "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasdan sonra Azərbaycan televiziya kanallarına verdiyi müsahibədə sanki Cənubi Qafqazın xəritəsini təqdim edirdi: "İkinci Qarabağ müharibəsindən sonra bölgəmizdə də vəziyyət tamamilə dəyişmişdir. Yeni reallıqlar ortaya çıxdı və əlbəttə, biz hazır olmalıyıq ki, bu reallıqlarda öz mövqeyimizi daha da gücləndirək. Bugünkü panel müzakirəsi bir daha onu göstərdi ki, bəziləri bu reallıqlarla barışmaq istəmirlər, amma məcbur olub barışacaqlar. Çünki biz real dünyada yaşayırıq və bölgəmizdə gedən proseslər, əlbəttə ki, yeni yanaşmaları tələb edir".

Dövlət başçımız məmnunluqla ifadə etdi ki, Münxen Təhlükəsizlik Konfransı kimi mötəbər beynəlxalq qurum da bu məsələyə xüsusi diqqət yetirir: "O ki qaldı, Ermənistan – Azərbaycan münasibətlərinin normallaşmasına, yenə də burada da bizim mövqeyimiz tamamilə məntiqlidir. Biz istəyirik ki, bu normallaşma tezliklə baş versin, o ədavət dövrü arxada qalsın. Əgər Ermənistan tərəfi özündə iradə və güc taparsa, əminəm ki, yaxın zamanlarda buna nail olmaq mümkün olacaqdır".

### Həm sevincli, həm də kədərli günlərdə əl-ələ

Dövlət başçımız fevralın 25-də İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində həlak olanların ailələrinə, yaxınlarına, Prezident Rəcəb Tayyib Ərdoğana və qardaş Türkiyə xalqına öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı vermiş, xəsarət alanların tezliklə şəfa tapmasını arzulamış və qardaş Türkiyənin bu zəlzələnin nəticələrini də tezliklə aradan qaldıracağına əminliyini ifadə etmişdir.

Rəcəb Tayyib Ərdoğan Azərbaycanın göndərdiyi humanitar yardımları yüksək qiymətləndirmiş, azərbaycanlı xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində öz fəaliyyətlərini böyük cəsarətlə, əzmlə davam etdirdiklərini, insanların xilası üçün fədakarlıqla çalışdıqlarını bildirmişdir.

Söhbət əsnasında Azərbaycanla Türkiyə arasında siyasi, iqtisadi, ticarət, enerji, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri və daha da dərinləşdirilməsi məsələləri, həmçinin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi barədə də fikir mübadiləsi aparılmışdır.

### Almaniya səfəri ermənilərin xülyalarını puç etdi

Azərbaycan Prezidentinin martın 14-də reallaşdırdığı Almaniya səfəri bir neçə cəhətdən tarixi və əlamətdar idi. Ancaq ən mühüm fakt o idi ki, cənab Prezidentin bu səfəri ermənilərin Almaniya xülyalarını puça çıxardı. Belə ki, Azərbaycan Prezidenti ilə birgə mətbuat konfransı keçirən Almaniya Kanslerinin dediyinə görə, Berlin Azərbaycan və Ermənistan arasında uzunmüddətli sülhün bərpasını arzulayır və dəstəkləyir: "Burada sülh yolu ilə həll deyəndə təbii onu nəyi nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun. Eyni zamanda, hər iki ölkənin əhalisinin insan hüquqları və azadlıqları qorunmalıdır, beynəlxalq hüquqa uyğun olmalıdır. Almaniya burada, təbii ki, öz dəstəyini göstərməyə hazırdır. Bildiyiniz kimi, Avropa İttifaqının Ermənistanda mülki missiyası mövcuddur, Almaniya bu missiyanı dəstəkləyir və bu missiyanın rəhbəri Almaniya tərəfindən təmin edilib.

Dövlət başçımız xatırlatdı ki, biz Almaniyada bir çox önəmli məsələləri müzakirə etdik. O cümlədən Avropa İttifaqı – Azərbaycan əlaqələrini: "Bu istiqamətdə çox önəmli addımlar atılır. Xüsusilə keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu bizim niyyətimizi göstərir. Memorandumun icrası və sürətlə icrası, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır".

### Ankarada fövqəladə sammit

Azərbaycan Prezidenti 2023-cü ilin ilk rübündəki sonuncu xarici səfərini də qardaş Türkiyə Cümhuriyyətinə etmişdir. Məqsəd Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak etmək idi. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilmişdir.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra "Fəlakət – fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək demişdir: "Zirvə görüşünün keçirilməsi çağırışı ilə çıxış edən can Azərbaycanın Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və millətim adından təşəkkürlərimi bildirirəm".

Ankara Sammitində türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarlar, xüsusən, Türk İnvestisiya Fondunun yaradılmasına dair qərar qəbul edilmişdir. Qeyd edilmişdir ki, bu fond üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcək.

Azərbaycan Prezidentinin fikrincə isə, Türkiyə son iyirmi ildə Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir: "Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir".

***İ.QAÇAYEV,***
***"Xalq qəzeti"***

**Ekoaksiyanın gündəliyi**

# Laçın yolu təcavüz qapısı ola bilməz

**Laçın–Xankəndi yolunda təşkil olunan ekoaksiya növbəti 119-cu günündə də ərazidən humanitar məqsədlər üçün istifadəyə şərait yaradılması ilə diqqəti cəlb edib. Ötən il dekabrın 12-dən indiyədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə ərazidən minlərlə nəqliyyat vasitəsinin, səhhətində problemlər olan şəxslərin və onları müşayiət edənlərin keçidinə nəinki maneə yaradılmamış, əksinə, aksiya iştirakçıları tərəfindən lazım gəldikdə kömək göstərilmişdir.**

Əslində, Azərbaycanın suveren ərazisində mədəni sərvətlərin qanunsuz talanmasına etiraz edən vətəndaşlarımız yolun humanitar məqsədlər üçün açıq olduğunu aksiyanın elə ilk günündən bəyan edirlər. Könüllülər Azərbaycan ərazilərində monitorinq aparmasına şərait yaradılması barədə haqlı tələblərinə əməl olunanadək burada qalacaqlarını bildirirlər. Çünki Laçın yolu təcavüz qapısı ola bilməz.

Aksiyanın ilk günlərindən düşmən tərəfdən bu yolun blokadada olması barədə yayılan məlumatların yalan olması daim öz təsdiqini tapıb. Bu yalana artıq Ermənistanın özündə də inanmırlar. Belə ki, aksiya vasitəsilə həm də, ermənilərin sıx yaşadıqları Azərbaycan ərazisinə silah, sursat, təhlükəli yüklərin daşınmasının qarşısı da alınıb ki, bu, həm də sadə erməni əsilli vətəndaşlarımızın rifahı üçündür. Buna görə də ekoaksiya humanizmin təzahürü kimi meydana çıxır.

Ermənistan siyasəti isə Azərbaycan cəmiyyətinin haqlı tələbləri qarşısında çoxdan dalana dirənib. Düşmən tərəfi tələblər yerinə yetirilənədək etirazların davam etdiriləcəyini başa düşdüyündən alternativ yol axtarmağa çalışsa da, buna nail ola bilmir. Çünki qeyd olunan marşrut üzrə hərbi yüklərin daşınması ilə bağlı Azərbaycan tərəfindən beynəlxalq ictimaiyyət lazımınca məlumatlandırılıb.




Digər tərəfdən, bu gün düşmən tapdağından azad edilmiş torpaqlarımıza dövlət tərəfindən qoyulan böyük həcmdə sərmayə, cəmi bir neçə ildən sonra bu yerlərin yüksək inkişafına səbəb olacağının qarantıdır. Həddindən ziyadə yoxsulluq içində yaşayan ermənilərin gələcəkdə Azərbaycan vətəndaşı kimi bu torpaqda yaşamaq üçün imkan axtaracaqları gözləniləndir.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirib ki, Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Onların təhlükəsizliyi, hüquqları Azərbaycanın digər insanlarının hüquqları kimi tam təmin olunacaq. Qarabağdakı cinayətkar xunta kənarlaşdırılandan sonra ermənilər daha yaxşı yaşayacaqlar. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar və ölkəmizdəki istənilən başqa insanlar üçün etdiyimiz kimi, biz onlar üçün də bütün sosial və iqtisadi imtiyazları təmin edəcəyik.

Azərbaycan cəmiyyətinin bu gün təmiz Qarabağ uğrunda mübarizəsi, torpaqlarımızda ekoloji terrora son qoymaq çağırışları sadə ermənilər tərəfindən də dəstəklənməsinin zamanı yetişib. Düşünürük ki, Azərbaycanın erməni vətəndaşları da gec-tez bunu dərk edib yerüstü və yeraltı sərvətlərimizi vəhşicəsinə talan edən erməni cinayətkarlarına qarşı birgə mübarizə aparacaqlar.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# "İslam dövləti"nin narkobiznesi: hədəf Azərbaycandır

**Uzun illərdir ki, İran bütün dünyada ən iri narkotik ixracatçılarından biri statusunu qoruyub saxlamaqdadır. Bugünlərdə Dövlət Sərhəd Xidməti rəisinin əməliyyat-axtarış işi üzrə müavini, general-leytenant Firuz Şirinzadənin mətbuata verdiyi açıqlamada İranın narkoticarətində ölkəmizi hədəfə götürdüyünə dair təkzibolunmaz faktlar var.**





### Son 5 ildə narkotik ixracı 9 dəfə artıb

General-leytenant Firuz Şirinzadənin təqdim etdiyi statistikadan bəlli olub ki, İran dövləti son 5 ildə Azərbaycana ixrac etdiyi narkotikin həcmini 9 dəfə artırıb. Bu, rəqəm İranın narkotiklə bağlı ixrac potensialını sürətlə artırdığını göstərir. Eyni zamanda, məlum statistika sübut edir ki, İran, nəyin bahasına olursa-olsun, Azərbaycanda narkotik istifadəsinin genişlənməsinə, daha çox gəncin "ağ ölüm"lə zəhərlənməsinə nail olmağa çalışır. Azərbaycan xalqını, onun genefondunu narkotiklə zəhərləmək, böyüməkdə olan nəslimizi həm əqli, həm də fiziki baxımdan qüsurlu vəziyyətə gətirmək rəsmi Tehranın nail olmağa çalışdığı başlıca hədəflərdən biridir. Qeyd edək ki, əgər 2018-ci ildə Dövlət Sərhəd Xidməti tərəfindən İrandan qanunsuz yolla Azərbaycana gətirilən 144,8 kq narkotik vasitə aşkar edilmişdisə, 2022-ci ildə bu rəqəm bir neçə dəfə artaraq, 1 ton 302 kq-a çatmışdır. Son 5 ildə narkotik qaçaqmalçılığına görə 55 İran vətəndaşının saxlanılması faktı da "İslam dövləti"nin "ağ ölüm" ticarətindən əl çəkmədiyini, əksinə, bu ticarəti genişləndirdiyini göstərir.

### Narkomafiyanın "çətiri" İİR-in xüsusi xidmət orqanlarıdır

Tehranın ölkəmizə qarşı narkotik ixracı məsələsində diqqətçəkən məqamlardan biri də məlum prosesin bilavasitə İranın xüsusi xidmət orqanlarının himayəsi altında həyata keçirilməsidir. İranın xüsusi xidmət orqanları Azərbaycanda narkotikdən istifadəni kütləviləşdirməklə, həm böyük maliyyə vəsaiti əldə etməyə, həm də həmin vəsaiti təkrarən ölkəmizdə müxtəlif terror və təxribatların reallaşmasına sərf etməyə çalışır. Başqa sözlə desək, İran narkotik ixracından əldə etdiyi gəlirin hər qəpiyini Azərbaycan dövlətinin təhlükəsizliyinin sarsıdılmasına, onun rifahının pozulmasına sərf etmək niyyətindədir.

Sevindirici haldır ki, Azərbaycanın əlaqədar dövlət qurumlarının ayıq-sayıqlığı nəticəsində İranın narkotik ixracının qarşısı əhəmiyyətli dərəcədə alınmaqda, narkotik qaçaqmalçılığına qarşı mübarizədə böyük uğurlar əldə edilməkdədir. Bu uğurlar ölkəmizi İranın narkotik təhdidindən qorumaqla yanaşı, rəsmi Tehranın narkotik ixracatçısı kimi bütün dünya üçün necə böyük təhdid təşkil etdiyini göstərir.

Azərbaycanın narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı ortaya qoyduğu mübarizə sübut edir ki, İranın narkotik təhdidinə qarşı bütün dünyanın birgə mübarizə aparması zəruridir. Yalnız bu halda hər il bütün dünyaya tonlarla narkotik ixrac edən İranın "ağ ölüm" təhlükəsini qəti şəkildə neytrallaşdırmaq, milyonlarla insanın həyatını qurtarmaq mümkündür.

**Seymur ƏLİYEV,**
**"Xalq qəzeti"**



# Tehran–İrəvan cütlüyünün məkrli oyunları Bakıya yönəlib

**Bölgəmizin iki destruktiv ölkəsi olan Hayastanla İran arasında əlaqələr gündən-günə genişlənir. Əlbəttə, bu əməkdaşlıq Azərbaycana qarşı yönəlməsəydi, biz buna heç əhəmiyyət də verməzdik. Ancaq, təəssüf ki, Hayastan–İran müttəfiqliyinin nüvəsində Azərbaycana qarşı fəaliyyət dayanır.**

Bu istiqamətdə sonuncu addım Hayastanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Tehrana işgüzar səfər etməsidir. Təhlükəsizlik şurasının ofisindən onun aprelin 9-da İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxani ilə danışıqlar aparacağı barədə məlumat verilib.

Qeyd edək ki, Qriqoryanla Şamxani sonuncu dəfə ötən ilin iyulunda İrəvanda görüşüb. Budəfəki səfər zamanı hansı məsələlərin müzakirə olunacağı açıqlanmayıb. Ancaq təhlükəsizlik şuralarının katiblərinin görüşündə hansı məsələlərə toxunulacağını güman etmək o qədər də çətin deyil. Aydın məsələdir ki, Qriqoryan və Şamxani regional təhlükəsizlik məsələlərini nəzərdən keçirəcəklər. Onların görüşü Hayastan-İran əlaqələrinin daha da möhkəmlənməsini hədəfləyir. İranın son aylarda Azərbaycana qarşı açıq-saçıq fəaliyyəti fonunda bu səfər maraq doğurur.

*

Bakı ilə Tehran arasında münasibətlər bu ilin yanvarında Azərbaycanın İrandakı səfirliyinə silahlı basqın nəticəsində diplomatik missiyanın mühafizə rəisinin həlak olması və onun iki həmkarının yaralanmasından sonra xüsusilə gərginləşib. Hadisədən sonra səfirlik fəaliyyətini dayandırıb, əməkdaşlar və onların ailə üzvləri Azərbaycana təxliyə edilib. Rəsmi Bakı Tehranın son vaxtlar Azərbaycanla sərhəddə təşkil etdiyi irimiqyaslı hərbi təlimləri də haqlı olaraq qeyri-dost addım kimi qiymətləndirir. Bundan başqa, Azərbaycan martın sonunda Milli Məclisin deputatı Fazil Mustafanın həyatına sui-qəsd cəhdində İranın əli olduğunu açıqlayıb. Son aylar ərzində hüquq-mühafizə orqanları ölkədə İranın xeyrinə casusluq və təxribat fəaliyyətində ittiham olunan şəxslərin saxlanılması istiqamətində bir sıra əməliyyatlar həyata keçiriblər. Aydın olur ki, belə bir dövlətlə hansısa üçüncü ölkənin əməkdaşlığı Azərbaycanda qətiyyən xoş qarşılana bilməz. Üstəlik, əməkdaşlığın digəri tərəfi torpaqlarımızı 30 il işğalda saxlayan Ermənistandırsa...

*

Bu arada İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənaninin Azərbaycanın 4 iranlı diplomatın "persona-non-grata" (arzuolunmaz şəxs) elan etməsinə dair açıqlaması istehza və acı gülüş doğurur. Onun sözlərinə görə, İran Azərbaycan tərəfinin Bakının "persona-non-grata" elan etdiyi iranlı diplomatlara münasibətdə hərəkətlərini mehriban qonşuluq prinsiplərinə zidd hesab edir. "Biz Azərbaycan Respublikası hökumətinin bu davranışını mehriban qonşuluq prinsiplərinə zidd hesab edirik", – deyə İran Xarici İşlər Nazirliyi "Teleqram" kanalında onun sözlərini sitat gətirib. Kənani Bakını "qarşılıqlı hörmət göstərməyə, mehriban qonşuluğa doğru irəliləməyə", həmçinin, "region düşmənlərindən", o cümlədən İsraildən "uzaq durmağa" çağırıb.

"İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə "persona-non-grata" elan edilməsi ilə bağlı İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin 7 aprel tarixli şərhi qərəzli və emosionaldır".

Bunu isə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə N.Kənaninin iddialarını şərh edərkən bildirib.

A.Hacızadə deyib: "Azərbaycan tərəfindən görülmüş tədbirin qonşuluq prinsiplərinə zidd olduğu barədə İran tərəfinin iddiası ilə bağlı bildiririk ki, Azərbaycan ərazisində qanunsuz fəaliyyət qonşuluq əlaqələri ilə uzlaşmır və atılan addımlar Vyana Konvensiyası çərçivəsindədir. İslam həmrəyliyi dindən siyasi məqsədlər üçün istifadəni, müsəlman qonşuların daxili işlərinə müdaxiləni istisna edir, eyni zamanda digər müsəlman ölkənin ərazilərinin hərbi işğalına dəstəyi ehtiva etmir. Azərbaycan öz qonşuları ilə münasibətləri daim qarşılılıq prinsipi əsasında qurub bu münasibətlərin pozulmasında heç zaman maraqlı olmayıb. Azərbaycan tərəfindən görülən adekvat tədbirlər hər zaman təxribatçı və təhrikçi addımlara cavab olub".

*

İran unudur ki, onun mehriban qonşuluqdan danışmağa mənəvi haqqı yoxdur. Tehran Ermənistanın Azərbaycana qarşı yürütdüyü 30 illik işğal dövründə İrəvana hərtərəfli dəstək verib. Bu hərbi təcavüz nəticəsində Azərbaycan–İran dövlət sərhədinin 132 kilometrlik hissəsi də işğal edilmişdi. Lakin İran tərəfi bir dəfə də olsun Ermənistana münasibətdə ittihamedici açıqlama verməmişdi. Əksinə, bu dövr ərzində İran–Ermənistan qardaşlığı daha da güclənmişdi. Son iki-üç ildə isə İran Azərbaycana qarşı o qədər xəbisliklər edib ki, saymaqla bitməz. İran rəhbərliyi mehriban qonşuluğa dair çağırışlarında səmimi olsaydı, 44 günlük Vətən müharibəsi dövündə onun hərbçiləri Qubadlıda Azərbaycan Ordusunun yolunu kəsməzdi. Müharibədən sonra İran Ermənistanın ərazi bütövlüyü məsələsini özünün "qırmızı xətti" elan etdi. İran bu gün Ermənistanla birgə Zəngəzur dəhlizinin açılmasına imkan vermir. Ötən il İran sərhədlərimiz yaxınlığında iki dəfə hərbi təlimlər keçirib. Lap bu yaxınlarda İranın hərbi təyyarəsi Araz çayı yaxınlığında, iki ölkənin dövlət sərhədinin düz üstü ilə uçuş həyata keçirib. Tehrandakı səfirliyimizə hücum nəticəsində bir soydaşımız şəhid olub, ikisi yaralanıb. Bütün bunlardan sonra Azərbaycan Müdafiə Nazirliyinin bu günlərdə yaydığı açıqlamada "Bu gün heç kimə sirr deyil ki, Ermənistanın dünyada iki əsas müttəfiqi varsa, onlardan biri Fransa, ikinci isə İrandır" sözlərinin əksini tapması heç də təsadüfi sayılmamalıdır.

İran rəhbərliyi Ermənistanla münasibətləri son dərəcə sıxlaşdırarkən bir sadə həqiqəti də unutdu. Unutdu ki, Azərbaycanın da dünyada çoxlu müttəfiqi var. İran Azərbaycan–İsrail əlaqələrini pozmaq istədi, ancaq nəticədə Bakı ilə Təl-Əviv daha da yaxınlaşdı, ölkəmizin İsraildə səfirliyi fəaliyyətə başladı. İranın növbəti anti-Azərbaycan addımlarının da bumeranq effekti yaradaraq onun özünə qayıdıb dəyəcəyi molla rejiminə aydın olmalıdır.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**

**Aydın QULİYEV,**
**politoloq**



İran–Ermənistan əməkdaşlıq əlaqələri Vətən müharibəsindən sonra xüsusilə genişlənib və demək olar ki, bütün istiqamətləri əhatə edir. İki ölkənin parlamentləri, xarici işlər nazirlikləri arasında siyasi, iqtisadi və mədəni sahədə dialoq tam sürətlə aparılır. Əməkdaşlığın genişlənməsi, ilk növbədə, Azərbaycana qarşı düşmənçilik niyyəti ilə bağlıdır. Vətən müharibəsinədək İran Hayastana hərbi, siyasi və diplomatik dəstəyini müəyyən üstüörtülü formalarda həyata keçirirdisə, müharibədən sonra bu dəstək tamamilə çılpaq və açıq xarakter alıb. İran Azərbaycana qarşı düşmənçiliyini həm də Ermənistanla hərtərəfli əməkdaşlığı dərinləşdirmək formasında ifadə edir. Əgər İran rəhbərliyi bu gün "Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir" deyirsə, deməli, onların əməkdaşlığının məqsədləri barədə gizli heç nə qalmır.

Bu baxımdan Ermənistan təhlükəsizlik şurasının katibinin İrana səfəri, ilk növbədə, yeni şəraitdə Azərbaycana qarşı növbəti addımların və tədbirlərin düşünülməsinə hesablanıb. Bəllidir ki, İranla Azərbaycan arasında münasibətlər məhz Tehranın təqsiri üzündən daha da gərginləşmək təmayülünə malikdir. Belə şəraitdə Hayastan–İran təhlükəsizlik şuralarının rəhbərləri arasında görüşlərin intensivləşməsi Azərbaycana qarşı hədəflənmiş gedişdir. Ona görə də biz Qriqoryanın səfərini diqqətlə izləməli və qəbul olunacaq qərarlarla bağlı təhlillərimizi aparmalıyıq. İran–Ermənistan əməkdaşlığının möhkəmlənməsi istiqamətində atılan hər bir addım ancaq anti-Azərbaycan xarakteri daşıyır.

# Hayastan Qafqazın Suriyasına çevrilə bilər

**Bölgədə fərqli məqsədlərlə iki missiyanın mövcudluğu, son vaxtlar Tehranın artan hərbi təhdidləri, eləcə də İrəvanın Qarabağ iddiasının davam etməsi Hayastana yaxşı heç nə vəd eləmir.**

Dostluq, müttəfiqlik səmimi və etibarlı bağlara söykənməyəndə bu münasibətlərin ömrü uzun olmur. Bu prinsip fərdlər üçün olduğu kimi, dövlətlər üçün də keçərlidir. Əsas məsələ seçimin düzgünlüyüdür. Bakının istər bölgədə, istərsə də beynəlxalq arenada özünə tərəf-müqabil, müttəfiq, dost seçdiyi subyektlərin hamısı zamanın sınağından çıxmış etibarlı ölkələrdir. İrəvana gəldikdə isə, onun özünə dost bildiyi, müttəfiq saydığı ölkələrlə münasibətləri çoxdan çat verməkdədir. Çünki onlar Hayastan rəhbərliyindən nə ədalət gördülər, nə də səmimiyyət. Azərbaycanı isə tərəf-müqabilinə sadiqliyinə, onu doğru bildiyi haqq yolundan çəkindirməyin mümkün olmadığına bütün dünya şahidlik edir.

### Məğlubdan müharibə çağırışları

29 ay əvvəl kapitulyasiya aktına imzasını atmış ölkədən son vaxtlar yeni müharibə çağırışları eşidilməkdədir. Bu çağırışların məntiqsiz, gülünc olduğunu bir tərəfə qoyaq, axı reallıq hissindən mərhum revanşist daşnakların nail olmağa ümid bəslədikləri nəticə ilğımdan başqa bir şey deyil. Amma özlərini ilğıma inandırmağı bacaran ermənilər bir az da irəli gedərək belə bir fərziyyə irəli sürürlər ki, əgər Zəngəzur uğrunda müharibə başlasa, İran ordusu Ermənistana daxil olacaq. Bu barədə sayıqlayan Birləşmiş Ermənistan Partiyasının sədri Ervand Tarverdiyan onu da ərz edir ki, Azərbaycan Sünikə təcavüz etsə, İranın hərbi müdaxiləsi qaçılmaz olacaq. Bəli, arzuladıqlarını reallıq kimi qələmə vermək və buna özlərini də inandırmaq hay xislətinin başlıca əlamətlərindən biridir.

Artıq Laçın dəhlizində və ətrafındakı torpaq yollara nəzarəti tam bərpa edən, Ermənistanla təmas zolağında nəzarət postlarını quran rəsmi Bakının İrəvanın nazı ilə oynamağa səbri qalmayıb. Şərti sərhədin o üzünə, yəni ərazisinə Avropanın faktiki olaraq hərbi-kəşfiyyat missiyasını dəvət edən Hayastanın riskli olduğu qədər də təhlükəli "manevrləri" ona baha başa gələ bilər. Birbaşa kənar aktorların nəzarəti altında hərəkət edən, daxildə sabitsizlik və xaosla üz-üzə qalan Paşinyan iqtidarı ölkəsinin Qafqazın Suriyasına çevrilmək ehtimalını unutmamalıdır. Bu skeptik proqnozu biz deyil, erməni mediası gündəmə gətirib.

### "Xankəndi Azərbaycana təhvil verilir"

Rusiyanın sülhyaratma kontingentinin Qarabağda müvəqqəti yerləşdirilmiş əraziləri tərk etməsinə 2 il 7 ay qalır. 2010-cu il 10 noyabr tarixli bəyanatda göstərilən bu müddətdən sonra Bakının hadisələrin hansı məcrada inkişaf edəcəyindən asılı olmayaraq, heç bir halda başqa bir ölkənin hərbi legionunun, eləcə də beynəlmiləl sülhməramlıların Qarabağda yerləşməsinə icazə verməyəcəyi birmənalıdır. Dediyimiz müddət bitəndən sonra isə Azərbaycan rəhbərliyi Qarabağın mülki erməni sakinləri ilə özü razılığa gələcək. Torpağımızdan çəkilib getmək istəməyən Hayastan ordusunun tör-töküntüsünün, separatçı dığaların yerini də özü göstərəcək. Bu prosesin startı artıq verilib. İrəvanın delimitasiya və demarkasiyasına tələsmədiyi sərhəd zolağı boyu Bakı zəruri nəzarət infrastrukturunu qurmaqdadır.

"Hraparak" qəzeti "Xankəndinin Azərbaycana təhvil verilməsi prosesi başladı" sərlövhəli məqalə dərc edib. Qəzet Şuşanın təcili tibbi yardım maşınının Xankəndiyə daxil olması, erməni xəstələrin azərbaycanlı həkimlər tərəfindən şəhərə aparılmasını məhz belə qiymətləndirib. Erməni müəllif daha sonra yazır: "İndi Xankəndidə şəhərin Azərbaycana təhvil verilməsi barədə danışırlar. Qarabağdakı ermənilər şəhərin küçələrində Rusiya sülhməramlılarının müşayiəti ilə Azərbaycanın təcili yardım maşınını görür və bu fakt onun psixoloji olaraq vəziyyəti qəbul etməsi deməkdir. Düşünürlər ki, onları nə ruslar, nə də Ermənistan müdafiə edir. Qərbli "tərəfdaşlar" isə onlara əhəmiyyət vermir. Buna görə də Azərbaycanın qarşısında heç nə edə bilməyəcəklər. Bu, o deməkdir ki, inteqrasiya prosesi artıq başlayıb və Rusiya da bu prosesdə Azərbaycanın yanındadır".

### Nə qədər gec deyil, sülhə gəlin!

Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiya və dermarkasiyasının aparılıması, sülh müqaviləsinin imzalanması çox uzaqda deyil. ABŞ Dövlət katibi Entoni Blinkenin təşəbbüsü ilə yaxın günlərdə Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Vaşinqtonda görüşü planlaşdırılır. Deyəsən, buzlar əriməyə başlayır, dialoq və sağlam təmaslar prosesinə aparacaq yola işıq salınır. Yəqin bütün münaqişə və müharibələrin sülhlə başa çatdığını İrəvana tez-tez xatırlatmağa ehtiyac var.

Axı, sülh həm də İrəvanın indiki iqtidarı üçün düşdüyü problemlər quyusundan çıxmağın yeganə yoludur.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**

**Fərid ŞƏFİYEV,**
**beynəlxalq münasibətlər üzrə ekspert**



Burada əsas, fundamental problem ondan ibarətdir ki, sərhədlər delimitasiya olunmayıb. Bizim bu məsələyə yanaşmamız ondan ibarətdir ki, əgər sərhəd zonasında hər hansı üçüncü qüvvə yerləşdirilirsə, onlar təhlükəsizliyə nəzarət edə bilərlər. Amma sərhəd delimitasiya olunmadan həmin pozuntular hansı formada, necə müəyən olunacaq?

Bu, Azərbaycan üçün konseptual bir məsələdir və istər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlıları, istərsə də Avropa İttifaqının mülki missiyası olsun, bunun bizim üçün elə bir fərqi yoxdur. Yenə təkrar edirəm, hələlik iki ölkə arasında sərhədlər delimitasiya edilməyib və bu səbəbdən də rəsmi Bakı heç bir kənar missiya ilə əməkdaşlıq etmək fikrində deyil.

Ən azından həmin missiyaların iş prinsipləri bizim üçün aydın deyil. Əslində, belə demək mümkünsə, heç aydın ola da bilməz. Çünki ilk növbədə, sərhəd məsələsi öz həllini tapmalıdır. Yerdə qalan bütün məsələlərin müzakirəsi məhz bundan sonra başlamalıdır.

**Ekspert rəyi**

**Yeganə HACIYEVA,**
**politoloq**



– Yaxın vaxtlarda Qarabağda tam legitim əsaslarla Azərbaycan Konstitusiyasının bütün şərtləri bərpa olunacaq. Qarabağ iqtisadi rayonu de-yure artıq Azərbaycanın yurisdiksiyasındadır, tezliklə bunun de-fakto təsdiqini də görəcəyik. Qarabağın təbii resurslarının talanması bölgədə Azərbaycan dövlətinin suverenliyi bərpa olunandan, ələlxüsus da sərhədlərin demilitasiya və demarkasiya prosesi başa çatdıqdan sonra dayana bilər. Doğrudur, Azərbaycan istər Laçın dəhlizi üzərində, istərsə də yardımçı torpaq yollarda özünün sərhəd-keçid postlarını qurub. İndi söhbət Ermənistanla bütün sərhəd zolağının delimitasiya və demarkasiya olunmasından gedir. Nə qədər ki, dövlət sərhədi müəyyən edilməyib və bu barədə ikitərəfli sənəd imzalanmayıb, talanın dayanmasını ehtimal etmək sadəlövhlükdür.

Bizdə olan məlumata görə, əvvəllər qızıl və mis-molibden xammalını Ermənistana özləri daşıyırdı, indi isə sülhə qəti aidiyyəti olmayan bu "missiyanı" Rusiya sülhməramlıları icra edir. Yəni, şərti sərhəd onlara imkan verir ki, sərvətimizi öz maşınlarında Ermənistana daşısınlar.

Xankəndidə, eləcə də Qarabağ iqtisadi rayonunun bizim nəzarətimizdə olmayan digər ərazilərində Azərbaycanın suverenliyinin tam bərpası, ermənilərin vətəndaşlığı qəbul etməsi bir-birilə bağlı proseslərdir. Bunlardan birinin olması, digərinin olmaması qeyri-mümkündür.

# Azərbaycan–Gürcüstan: yaxın qonşular və strateji tərəfdaşlar



**Azərbaycan və Gürcüstan qonşu, dost ölkələr olmaqla yanaşı, həm də strateji tərəfdaşdırlar. Hazırda ölkələrimiz bir çox sahələrdə olduğu kimi, enerji və nəqliyyat-logistika üzrə də uğurlu əməkdaşlıq edirlər. Eyni zamanda, Gürcüstan Azərbaycanın əsas ticarət partnyorlarından biridir.**

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə növbəti səfəri də əməkdaşlığın inkişaf perspektivləri baxımından mühüm əhəmiyyət daşıyır. Aprelin 7-də Qəbələ şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında keçirilən təkbətək görüş zamanı ölkələrimizin birgə həyata keçirdikləri enerji, infrastruktur layihələrinin əhəmiyyətindən söhbət açılıb, müştərək enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığı vurğulanıb. Görüşdə, həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmi qeyd olunub, Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi, Azərbaycanın və Gürcüstanın Orta Dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyi diqqətə çatdırılıb.

Söhbət zamanı ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı və bu istiqamətdə əlavə tədbirlərin görüldüyü, eləcə də "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in əhəmiyyəti xüsusi vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarında əməkdaşlığın mövcud vəziyyəti və perspektiv imkanlardan bəhs olunub. Prezident İlham Əliyev bəyanatında bildirib ki, Gürcüstan və Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayırlar. Bu il dünya bazarlarına 24,5 milyard kubmetr Azərbaycan qazının ixrac olunacağını diqqətə çatdıran dövlətimizin başçısı, həmçinin deyib ki, 2022-ci ildə Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, ölkəmiz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəqlini təmin etməlidir.

Ötən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya tərəfindən imzalanmış Sazişi və cari ilin fevral ayında Bakıda "yaşıl enerji" layihəsinin birinci rəhbər komitəsinin iclasını xatırladan dövlətimizin başçısı qeyd edib ki, bu layihənin uğurla həyata keçirilməsi dörd ölkənin birgə fəaliyyəti, eləcə də Avropa İttifaqının dəstəyi hesabına mümkün olacaq.

Məlum olduğu kimi, tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan və Gürcüstan bir sıra nəqliyyat-logistika layihələrinin də fəal iştirakçıları kimi tanınır. Mətbuata bəyanatında bu vacib məqama toxunan Prezident İlham Əliyev deyib: "İkitərəfli əlaqələrimizin önəmli hissəsi nəqliyyatla bağlıdır. Burada da bütün işlər uğurla gedir, plan üzrə gedir. Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərirlər. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımaların həcminin artırılması istiqamətində əlavə addımlar atılacaqdır... Yeni yüklərin Orta Dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda, yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir".

Gürcüstanın Baş nazir İrakli Qaribaşvilinin mətbuata bəyanatında səsləndirdiyi fikirlər də ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsindən xəbər verir. Baş nazir qeyd edib ki, Azərbaycan Gürcüstanın təkcə qonşusu və dostu deyil, həm də mühüm strateji tərəfdaşıdır. Uzun illər müxtəlif sahələrdə birgə reallaşdırılan tarixi layihələrin xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirdiyini vurğulayan İrakli Qaribaşvili Gürcüstanın etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşı olduğunu diqqətə çatdıraraq deyib: "Biz bu fəaliyyətimizi davam etdiririk və dayanmırıq. Bildiyiniz kimi, biz Qara dənizin dibi ilə elektrik kabeli aparacağıq, Orta Dəhliz məsələsini inkişaf etdiririk. "Yaşıl enerji"ni Avropaya nəql etmək üçün bizim nəhəng potensialımız mövcuddur, bunun çox böyük perspektivləri var. Bu, bir gələcəkdir. Hər iki ölkə bu sahəyə daha çox sərmayə qoyacaq. Biz bunu da müzakirə etdik".

Orta Dəhliz layihəsi üzrə birgə koordinasiyalı şəkildə fəaliyyət göstərildiyini diqqətə çatdıran Baş nazir qeyd edib ki, əsas məqsəd yaxın gələcəkdə bütün maneələri aradan qaldıraraq infrastrukturu – dəniz limanlarını, dəmir yollarını birgə inkişaf etdirməkdir.

Göründüyü kimi, ölkələrimiz arasında iqtisadi münasibətlərin perspektivi olduqca yüksəkdir. Heç şübhəsiz, Gürcüstan Baş nazirinin ölkəmizə növbəti səfəri də çoxtərəfli əməkdaşlığa təkan verəcək.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Eyyub Kərimli,**
**iqtisadçı-ekspert**

Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi münasibətlər yüksək səviyyədədir. 2022-ci ildə Azərbaycanın xarici ölkələrlə apardığı idxal-ixrac əməliyyatlarına görə Gürcüstan 13-cü yerdə olub. Belə ki, il ərzində iki ölkə arasında ticarət dövriyyəsi 772 milyon ABŞ dolları təşkil edib. Cari ilin yanvar-fevral aylarında isə Azərbaycan Gürcüstanla 172 milyon dollarlıq idxal-ixrac əməliyyatları həyata keçirib.

Ötən müddətdə ölkəmizdə Gürcüstan investisiyalı 750 kommersiya qurumu qeydiyyata alınıb. Ümumiyyətlə, Azərbaycan qonşu Gürcüstanın inkişafında ən fəal və davamlı investisiya yatıran ölkə kimi mühüm mövqeyə malikdir. Belə ki, ötən müddətdə Gürcüstandan Azərbaycana 263 milyon dollar, Azərbaycandan isə bu ölkəyə 3,4 milyard dollar məbləğində investisiya yatırılıb.

Hər iki ölkənin tarixi İpək Yolu üzərində yerləşməsi və birgə irimiqyaslı enerji və nəqliyyat layihələrinin icra edilməsi regionumuzdan keçən yük axınının həcmini dəfələrlə artırıb. Azərbaycanla Gürcüstan arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivədə irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması regional sülhə və sabitliyə xidmət edir.

Bu xüsusda yeni bir inkişaf kimi 2022-ci il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i qeyd etməliyik. Bu saziş yeni dünya düzəninin formalaşdığı bir mərhələdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinin təmin edilməsi prosesi ilə bağlı zəncirin ən vacib halqalarından biridir. Mühüm əhəmiyyətə malik bu sənəd hər iki ölkənin yalnız regionda deyil, həmçinin Avropa ölkələri ilə münasibətlərində etibarlı tərəfdaş olduğunu bir daha sübut edir.

**Azərbaycan Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi üzrə hesabata əsasən, ardıcıl olaraq mövqeyini yaxşılaşdıran ölkələrin siyahısında yer alıb. Respublikamızda son illərdə görülən kompleks tədbirlər nəticəsində ərzaq təhlükəsizliyinin təmini sahəsində ciddi nailiyyətlər əldə edilib. Bir çox ölkələr COVİD-19 pandemiyası zamanı və Rusiya-Ukrayna müharibəsi nəticəsində əhalisini ərzaqla təmin etməkdə problemlə üzləşsə də, Azərbaycan əhalisi üçün vəziyyət belə olmayıb.**

# Ərzaq təhlükəsizliyi strateji məqsəddir



Qeyd edilən istiqamətdə vaxtında görülən tədbirlər hazırda öz nəticələrini verir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanı da xüsusi qeyd olunmalıdır. Bu sənəd ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsini və ərzaq təhlükəsizliyinin gücləndirilməsini qarşıya mühüm vəzifə kimi qoyur. Xatırladaq ki, dövlət başçısının həmin fərmanına uyğun olaraq, 2023-cü ildə müvafiq tədbirlərin həyata keçirilməsi üçün 180 milyon manat vəsait nəzərdə tutulub.

Baş nazir Əli Əsədovun Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair hesabatında da bu dövr ərzində respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı daxili bazarda özünütəminat səviyyəsinin qorunması və əhalinin əsas ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması istiqamətində önəmli layihələr həyata keçirildiyini bildirib.

Baş nazir daha sonra deyib: "Əsas ərzaq məhsulları üzrə ehtiyatların yaradılması ilə bağlı qərarlar qəbul olunub. Minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı ilə məşğul olan sahibkarlara güzəştli şərtlərlə kreditlər, faiz subsidiyaları və vergi-gömrük güzəştləri verilib. Ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 540 milyon manat vəsait sərf edilib".

Yeri gəlmişkən, hazırda ölkəmizdə kənd təsərrüfatında məhsul istehsalının artmasına yönələn tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə ərzaq təhlükəsizliyinin gücləndirilməsini şərtləndirir. Ötən ilin iyul ayında qəbul edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkədə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsinə xidmət edən layihələr məhz həmin məqsədi daşıyır.

Hazırda ölkəmizin buğda ehtiyatının dayanıqlığı üzərində iş aparılır. Qarşıdakı illərdə 80-100 min hektar arasında torpağın əkin dövriyyəsinə cəlbi planlaşdırılır. Prezident İlham Əliyev martın 13-də Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü çərçivəsində keçirilən müzakirələrdə bununla bağlı deyib: "İşğaldan azad olunmuş Qarabağın və Şərqi Zəngəzurun böyük kənd təsərrüfatı potensialı var. Hazırda Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri, həmin zonalarda Prezidentin xüsusi nümayəndələri və digər qurumlar birgə çalışırlar ki, kənd təsərrüfatına uyğun torpaqlardan maksimal səmərəliliklə istifadə edilsin. Çünki 30 il ərzində Ermənistan qanunsuz olaraq torpaqlarımızı istismar edib, lakin bu da səmərəsiz edilib. Onlar heç bir vəsait yatırmayıb, sadəcə, torpaqdan istifadə ediblər və bu səbəbdən məhsuldarlıq Azərbaycanda digər növlərlə müqayisədə üç dəfə aşağı olub. İndi isə biz azad olunmuş ərazilərə qayıdacaq fermerlərimiz üçün hansı məhsulların yetişdirilməsi ilə bağlı tövsiyələr hazırlayırıq və zənnimcə bu iş bitib. Biz onları məcbur edə bilmərik. Lakin güzəştli subsidiyalarla biz onları istiqamətləndirə bilərik ki, bəzi torpaqlar kartof, digərləri başqa tərəvəz və meyvələr üçün istifadə edilsin".

Qeyd edək ki, Qarabağda və Şərqi Zəngəzurda bitkiçiliklə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. Artıq qoyunçuluq təsərrüfatları yay aylarında Kəlbəcər və Laçın yaylaqlarına köçürülür. Təkcə keçən il adları çəkilən iqtisadi zonalardakı yaylaqlara 61 mindən çox arı ailəsi aparılıb.

Qarşıdakı illərdə isə işğaldan azad olunmuş ərazilərin hesabına Azərbaycanın ərzaq təhlükəsizliyinin daha da güclənəcəyi proqnozlaşdırılıb.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi

**Eldəniz Əmirov,**
**iqtisadçı-ekspert**



Ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir. Bitkiçilik sahəsinə aid olan taxılçılıq aqrar sektorun əsasını təşkil edərək əhalinin çörək və çörək məmulatlarına tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın yemə ehtiyacının təminində mühüm rol oynayır. Ona görə də taxılçılıq təsərrüfatının inkişafı prioritet istiqamətdir.

Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə toxunaraq taxılçılığın ərzaq təhlükəsizliyində mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı bu istiqamətdə əsas tələbatın təmin olunmasını zəruri şərt hesab edib. Ölkə rəhbəri taxıl istehsalında 100 faiz təminatı böyük torpaq sahələrinin şərtləndirdiyini bildirib.

Fikrimcə, Ermənistanın uzun illər ərzində qanunsuz istismar etdiyi torpaqlarımız dövriyyəyə daxil edildikdən sonra dövlət başçımızın yuxarıda xatırlatdığım fikri gerçəkləşəcək. Yəni ölkəmiz taxıl istehsalında 100 faiz təminat məqsədini reallaşdıracaq.

Onu da qeyd edim ki, hazırda taxıl istehsalçıları olan fiziki və hüquqi şəxslərə dövlət büdcəsindən ayrılan subsidiya hesabına arpa və buğda toxumları, gübrə, dərman və herbisidlər alınaraq verilir.

Taxıl istehsalının artırılmasının əsas yollarına gəldikdə isə deyə bilərəm ki, burada əsas rolu qısa rotasiyalı əkin dövriyyələri, torpaq becərmələri, gübrə verilməsinin səmərəli üsulları, həmçinin optimal səpin müddəti və normalarının, yeni intensiv sortların təsərrüfatlara tətbiqi, keyfiyyətli toxum materialından istifadə edilməsi və əkinlərin xəstəlik, ziyanverici, eyni zamanda, alaqlardan mühafizə olunması kimi amillər oynayır.

Göstərilən becərmə kompleksinə daxil olan əhəmiyyətli tədbirlərdən biri də taxıl səpininin vaxtında və keyfiyyətlə aparılmasıdır. Keyfiyyətli səpin aparmaqla sağlam və kütləvi cücərtilərin alınması məhsulun yarısı deməkdir. Yüksək texnologiya əsasında fəaliyyət göstərən, müasir aqro tələblərə əməl edən təsərrüfatların əkin sahələrində yüksək göstəricilərə nail olunması məhz bunun bariz ifadəsidir.



# Neft Fondunun gəlirləri artıb

**Cari ilin yanvar-mart aylarında Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan əldə etdiyi gəlirlər 2 milyard 44 milyon ABŞ dolları təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,5 faiz çoxdur. 2021-ci ilin ilk rübündə bu göstərici 1milyard 866 milyon dollar səviyyəsində olub.**

Hesabat dövründə ARDNF "Şahdəniz" yatağından hasil edilən qaz və kondensatın satışından 646 milyon 359 min dollar gəlir əldə edib. Xatırladaq ki, ötən ilin eyni dövründə bu rəqəm 359 milyon 125 min dollara bərabər olub. Göründüyü kimi, fondun bu ilin birinci rübündə qaz və kondensatın satışından qazancı əvvəlki ilin eyni dövründəkindən 1,8 dəfə çoxdur.

2023-cü ilin ilk rübündə "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlərdə isə iki dəfə artım qeydə alınıb. Belə ki, ötən ilin yanvar-mart aylarında 62 milyon 494 min dollarlıq kondensat satıldığı halda, cari ilin eyni dövründə bu rəqəm 128 milyon 166 min dollar təşkil edib.

*"Xalq qəzeti"*

# Dövlət büdcəsi ilə bağlı proqnoz açıqlanıb

**Dünya Bankının (DB) hesabatında Azərbaycanın 2025-ci ilə kimi dövlət büdcəsi ilə bağlı proqnoz yenilənib.**

Hesabata görə, ölkəmizin büdcə profisitinin ümumdaxili məhsulda (ÜDM) payı 2022-ci ildəki 5,5 faizdən 2023-cü ildə 4,8 faizə enəcək, büdcənin ÜDM-də payı isə 2024-cü ildə 4 faiz, 2025-ci ildə isə 3 faiz təşkil edəcək.

DB-nin şərhində daha sonra fiskal balansın ortamüddətli perspektivdə profisitdə qalacağı və ÜDM-in orta hesabla 3,9 faizini təşkil edəcəyinin təxmin olunduğu bildirilir.

Bank, həmçinin 2023-2025-ci illər üzrə Azərbaycanın inflyasiya proqnozunu yeniləyib, respublika üzrə inflyasiyanın 2022-ci ildəki 13,5 faizdən 2023-cü ildə 8,5 faizə qədər azalacağını proqnozlaşdırıb.

# Azərbaycanda ən böyük körpünün layihəsi hazırdır

**"Gidrotransproyekt" Elmi-Tədqiqat Mərkəzinin direktoru Natiq Əliyev Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun genişləndirilməsi layihəsi ilə bağlı Bakıda keçirilən ictimai dinləmələrdə Azərbaycanda ən böyük körpünün tikintisinə başlanılacağını bildirib.**

O, Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun yerləşdiyi ərazinin sürüşmə zonası olduğundan orada böyük körpünün inşasının planlaşdırıldığını diqqətə çatdırıb. Eyni zamanda, körpünün uzunluğunun 1180 metrə, hündürlüyünün isə 83 metrə çatacağını, infrastrukturun respublikada ən böyük yol ötürücüsü olacağını deyib.

*"Xalq qəzeti"*

Qayıdışın addımları

# Talış kəndi didərgin övladlarını qoynuna alıb

## Qarabağ müxbirimizin reportajı

**Talış kəndindəyəm. Bu xoşbəxtliyimə görə, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan hərbçilərinə borcluyam. İkinci Qarabağ müharibəsində bu istiqamətdə çox ağır döyüşlər gedib. Ermənistan uzun illik işğal dövründə hazırlıqlar görmüş, xəndəklər qazılmış, müdafiə sistemi qurulmuş, əngəllər yaradılmış və onların minalarla, elektron sistemlərlə və digər vasitələrlə qorunması təmin edilmişdi. Ermənilər deyirdilər ki, Azərbaycan Ordusu üç mərhələli xətləri keçə bilməz və Ermənistan ordusu yenilməzdir. Amma yanılırdılar. Düşmən orada nə qədər çətin, mürəkkəb manеələr qursa da, bizim bölmələrimiz "Ohanyan səddi"ni keçərək Talış kəndini azad etdi. Bu gün məhz onların sayəsində Talış kəndindəyəm.**



Səhər saat 8-ə işləyib. Ətrafda bir sakitlik hakimdir. Sis-duman səbəbindən 20 metr irəlini görmək mümkün deyil. Dəqiqələr keçdikcə sis-duman da çəkilir, dağların arasından çıxan Günəş ətrafı işıqlandırır. Talış kəndinin təmiz küçələrini, yenidən tikilmiş və bərpa olunmuş binalarını, salınmış yaşıllıqlarını daha aydın görürəm. Çox gözəl mənzərə açılır, sakinlər üçün hər cür şərait yaradılıb. Yaxınlıqdakı həyətdən bir nəfər maraqla mənə baxır. Deyəsən, nabələd olduğumu duyaraq soruşur:

– Bizim kəndə xoş gəlibsən. Adətən, qonaqlar günorta gəlir, bir-iki saat qalıb qayıdırlar. İndi saat heç 8 deyil, yəqin, yaxın rayonlardan gəlibsən?

Ağcabədidən gəldiyimi bildirirəm. Məni evinə dəvət edir:

– Həyətə keç, qonağım ol, yaxşı çay dəmləmişəm, birlikdə içək...

Əslən Talış kəndindən olduğunu deyən Zahid Oruc oğlu Əlləzov başlarına gələnləri danışır: "Biz Talış kəndindən 1993-cü ildə çıxmaq məcburiyyətində qaldıq. Evlərdən, həyətlərdən eşitdiyim qadın və uşaq səslərini, qışqırtılarını bu gün də xatırlayıram. Düşmənlər bizim evlərə, avadanlıqlara, heyvanlara sahib çıxdılar.

Talış kəndindən çıxandan sonra Samux rayonunda məskunlaşdıq və kiçik bir daxmada çox ağır günlər yaşadıq. İlk dövrlərdə sobanı qalamağa odunmuz belə yox idi, uşaqlar yorğanlara bürünərək isinməyə çalışırdılar. Bəzən çörək almağa pulumuz olmayıb.

Sərin bulaqlar üstündə, yaşıllıqlarda, təmiz havada ömür sürən adam üçün aran yerində yaşamaq çox çətindir. Cavan idim, illər keçdikcə yeni şəraitə də öyrəşdik. Ailəm üçün şərait yaratdım, amma gec-tez yenə də Talışa qayıdacağımıza ümidimi itirmədim. 30 ildən sonra belə bir şansım oldu. Talış azad olunduqdan sonra doğma kəndimizə qayıdacağıma inamım artdı.

Azərbaycan Prezidentinin tapşırıqları əsasında Talış kəndində tikinti-bərpa işləri aparılır, yeni evlər inşa olunur, zəruri infrastruktur yaradılırdı. Mətbuatdan oxuduqlarımdan bilirdim ki, ilkin mərhələdə 20 fərdi yaşayış evi müasir tələblərə uyğun qurulur və bir zamanlar doğma yurdlarından didərgin düşən ailələrə təhvil veriləcək.

1922-ci ildə mənə zəng edib deyəndə ki, "ailəliklə öz yerinizə qayıtmaq istəyirsənmi?"

– Heç düşünmədən:

– Əlbəttə,– dedim.

– Qayıdacağıq, buna söz ola bilməz. İllərdi bu həsrətlə yaşamışıq.

Və mart ayında arzum reallaşdı. Böyük Qayıdış proqramı çərçivəsində Tərtər rayonunun Talış kəndinə ilkin mərhələdə Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə yaşayan 20 ailə köçürüldü ki, bu ailələrdən biri də biz olduq. Ev bölgüsünün 20 ailə arasında püşkatma yolu ilə keçirilməsi nəzərdə tutulurdu. Aramızda iki müharibə veteranı ailəsi vardı, onlar Talış kəndinin düşmən işğalından azad olunmasında iştirak etmişdilər. Hamımızın razılığı ilə bu ailələrə icazə verildi ki, istədikləri evləri seçsinlər. Bundan sonra ailə üzvlərinin sayından asılı olaraq püşkatma keçirildi və hər bir ailəyə veriləcək evin ünvanı müəyyənləşdirildi. Onlardan 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü isə dördotaqlı idi.



Bizim ailəyə düşən ev üçotaqlıdır. İstilik, işıq, su, qaz, bir sözlə, hər şey var. Yoldaşım hazırda işlə təmin olunub, tibb məntəqəsində xadimə işləyir. Mən isə heyvandarlıqla məşğul olacağam. Dövlət Məşğulluq Agentliyindən heyvan ayrılacağına söz veriblər.

Zahid Əlləzovla sağollaşıb ayrılıram. Yaxınlıqdakı məktəbin həyətində canlanma var, uşaqlar məktəbin həyətində sıra ilə düzülüb Azərbaycanın Dövlət Himnini oxuyurlar. Qürur hissi keçirirəm, işğaldan azad olunmuş torpağımızda – Talış kəndində himnimiz səslənir...



Kəndin yuxarısında yerləşən Azərbaycan Bayrağı meydanına doğru gedəndə iki nəfərlə rastlaşıram. Daha doğrusu, yaşlı bir kişi həyat yoldaşını işə yola salır. Salamlaşıb hal-əhval tuturuq. O da məni evinə dəvət edir:

– Biz səhər yeməyi yeyirik, sən də bizə qoşul, qonağımız ol, – deyir.

Razılaşıram. Ev sahibi Həsənxan İsəxan oğlu İrzayev bildirir ki, 1991-ci ildən 1993-cü ilədək Talış kəndində yaşayıblar: "1993-cü ildən kənddən məcburi köçkün düşmüşük. Buradan çox çətin vəziyyətdə getmişdik, demək olar ki, heç nəyimiz yox idi. Uzun müddət Samux rayonunda çətinliklər içində yaşadıq. Talış kəndində evlər təmir olunandan sonra Samux rayonuna nümayəndələr gəldi və bizi qeydiyyata aldılar. Bugünədək Talışda yaşadığımı təsdiq edən vəsiqəni də saxlamışam. İki oğlum hərbçidir və onlar Talış kəndinin azad edilməsində iştirak ediblər. Qarabağımızın işğaldan azad edilməsində oğlumun da xidmətinin olmasından qürur hissi keçirirəm. Yalnız onlar deyil, əli silah tutub bu yerlərin azad olunmasında iştirak edən hər bir əsgər mənim övladımdır.

Ev bölgüsü zamanı bizim ailəyə istədiyimiz evi seçməyə icazə verdilər və indi yaşadığımız mənzili seçdim. Bu evdə rahat yaşamaq üçün hər cür şərait var, mənzil zəruri avadanlıqla təmin edilib. Qaz, elektrik, su daimidir, internet normal işləyir.

Şükür Allaha, ailə üzvlərim də işlə təmin olunub və çox yaxşı yaşayırıq, heç bir problemimiz yoxdur. Bizə belə bir şərait yaratdığı üçün Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarıq. Həmişə qayğımıza qalıb və bu gün də öz qayğısını əsirgəmir".

Söhbətə Həsənxan kişinin gəlini Gülənaz xanım da qoşulur: "Mən Qırğızıstanda anadan olmuş, Azərbaycana gəlin köçmüşəm. Həyat yoldaşım hərbçidir, Gəncədə xidmət edir və Vətənini çox sevir. Bu sevgi hissi, hər şeydən əvvəl, məhz ailədən, yaşadığı mühitdəki atmosferdən qaynaqları, insanın içindən keçir, qəlbinə hopur, yaşanır və formalaşır. Yoldaşımda da Vətən sevgisi onun ailəsindən, doğulduğu Talış kəndinin havasından, suyundan qaynaqlanıb, sonrakı həyatında böyüyüb, hərbidə xidməti zamanı qəlbinə hakim kəsilib. Müharibə başlananda da döyüşə ilk atılanlardan biri mənim həyat yoldaşım olub.

Müharibənin başlandığını ilk dəfə televizordan eşitdik. Veriliş birdən kəsildi, bir neçə dəqiqəlik fasilədən sonra müharibənin başlandığı barədə xəbər verildi. İlk dəqiqələrdə həyəcanlandım, sözün düzü, bir az da qorxdum... İnanırdım ki, ordumuz torpaqlarımızı tezliklə düşməndən azad edəcək. Tez-tez dua edirdim. Bəzən də həyat yoldaşımı yuxuda görürdüm. "Sakit-sakit gülür, gözlərindəki işıq, məhəbbət parıltısı sakitləşdirirdi məni. "Tezliklə qalib gələcək, torpaqlarımızı işğaldan azad edəcəyik"– deyirdi.

Dedi və verdiyi sözə də əməl etdi. Döyüş yoldaşları ilə birlikdə səngərdən çıxdı, "Ohanyan səddi"ni keçdi, Azərbaycan bayrağını azad etdiyimiz yüksəkliklərdə dalğalandırdı. İkinci Qarabağ müharibəsi başlanandan bir həftə sonra Talış kəndinin azad olunmasında iştirak etdi. Bu gün yaşadığımız Talış kəndinin azad edilməsində onun da xidməti var.

Gülənaz Rəsmixanova bildirir ki, hazırda aptekdə işləyir, həyat yoldaşı isə Gəncədə hərbi xidmətini davam etdirir.



Yaxınlarda isə xidmət yerini Suqovşana dəyişdirəcək.

Həsənxan İrzayev yenidən söhbətə qoşulur və bildirir ki, Talış kəndinin böyük gələcəyi var. Kənddə 180-ə yaxın ailə yaşayacaq. Bu ailələr üçün hər cür şərait yaradılıb və yaradılacaq. İndi hər kəs görə bilər nə gözəl evlər, məktəb, uşaq bağçası, ictimai binalar tikilib.

"Gələcəkdə Talış kəndi turizm mərkəzinə çevriləndən sonra yeni iş yerləri yaradılacaq, sahibkarlığın inkişafına təkan veriləcək. Bundan başqa, heyvandarlığın inkişaf etdirilməsi üçün də şəraitimiz var".

Bəli, biz qurub-yaradan xalqıq. Ermənistandan fərqli olaraq biz öz ərazimizdə qurub-yaradır və gələcəyə böyük ümidlərlə baxırıq.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

"Yeni Azərbaycan"– 30

**Yeni Azərbaycan Partiyasının yaranmasının beşinci ayında – 1993-cü il aprelin 10-da mətbuat yayımı köşklərində yeni bir qəzet də peyda oldu. Bu, öz həyatının yeni dönəminə – dövlət müstəqilliyinə qədəm qoymuş Azərbaycanın ictimai-siyasi təbəddülatlarla dolu bir çağında partiyanın fəaliyyətini işıqlandırmaq, ölkədə hərc-mərcliyə son qoymaq, ictimai-siyasi sabitliyə nail olmaq, suverenliyi, ərazi bütövlüyünü möhkəmləndirmək səylərini əsaslı şəkildə dəstəkləmək, o zaman hələ Naxçıvanda yaşayıb xalq naminə fədakarlıqlar göstərən dünya şöhrətli siyasət dahisi Heydər Əliyevin ideyalarını yaymaq amalı ilə ortaya çıxan "Yeni Azərbaycan" idi.**

# Öz dəst-xətti ilə seçilən qəzet




Ümummilli lideri yaradılmasının təşəbbüskarı olduğu bu qəzetlə ilk gündən sıx tellər bağlayıb. Yeni mətbu orqanının ilk nömrəsində onun təbriki dərc edilib və görkəmli siyasət xadimi öz xeyir-duası ilə qəzetin başlıca məramnaməsini diqtə edib. O gün-bu gün, media ailəmizin əsas üzvlərindən biri kimi tanınan bu qəzet təkcə bir partiya orqanı olmaqla kifayətlənməyərək xalq həyatının nəbzini tutmaq, onu irəliyə aparmaq missiyasının daşıyıcısına çevrilib.

Budur, "Heydər Əliyev İli"ndə, ulu öndərin 100 illik yubileyi qeyd olunan bir vaxtda "Yeni Azərbaycan" qəzetinin də 30 yaşı tamam olur. Müstəqilliyinə qovuşmuş ölkəmizin 30 illik salnaməsini yazan qəzet əhatə dairəsi və car çəkdiyi ideyaların yayılması baxımından daha uzun yol qət edib. Həm ulu öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin xalqı, milləti böyük məqsədlər naminə səfərbər etdikləri, vətəndaşlarımıza sarsılmaz inam, yenilməzlik ruhu aşıladıqları gün kimi aydındır. Mübaliğəsiz deyə bilərik ki, "Yeni Azərbaycan" qəzetinin kollektivi də həmişə bu missiyaya layiqli platforma olub, özünün həyata aydın baxışları ilə saf əqidə daşıyıcılarının yollarını işıqlandırıb.

Qəzetin baş redaktoru Alqış Musayev təsisat tarixindən etibarən burada çalışıb. Arada müəyyən zaman fasiləsi olsa da, ötən il yenidən doğma kollektivə qayıdıb. Onun dedikləri:

-Onda hələ tələbə olsam da, qəzetlə sıx əməkdaşlığım başlayıb. Qəzetin ikinci sayı çapa hazırlananda artıq redaksiyada çalışırdım. Həyatımın ən qaynar dövrləri "Yeni Azərbaycan"ın adı ilə bağlıdır. Hətta bəzi səbəblərdən 2008-2021-ci illərdə belə hər kəs məni qəzetin sabiq redaktoru kimi xatırladı, tanıdı və təqdim etdi. Təbii ki, bu, hər redaktora nəsib olmayan bir haldır və mən də bundan qürur duyuram. 30 yaşlı bu qəzet sanki mənim gəncliyimin özüdür.

Alqış müəllimgilin qəzeti bu gün özünün dizayn-forma və məzmun dolğunluğu ilə diqqət çəkir, mətbu orqanlar bolluğunda seçilir. Burada mövzu rəngarəngliyi, vizual cəlbedicilik, əsas məhiyyətin ustalıqla qabardılması, bir sözlə, yeknəsəqlikdən qaçmaq üçün müasir çap texnologiyalarının bacarıqla mənimsənilməsi kimi prinsiplər əsas götürülür. Daim yenilik yolunda olan yaradıcı heyət hər zaman oxucuları yaxşı mənada nə iləsə təəccübləndirməyə çalışır və buna nail ola bilir. Bu qəzetin səhifələrində həm dünyanın aydın mənzərəsi var, həm Azərbaycanın çoxsahəli ictimai-siyasi həyatının təbliği, qazanılan uğurların təqdiri və qalib xalqın duyğu-düşüncələrinin təbii ifadəsi.

Hakim partiyanın qəzetinin buraxıldığı redaksiyada həsəd aparılası işgüzar bir yaradıcılıq mühiti formalaşıb. Kollektiv özünün öncüllük məsuliyyətini dərindən dərk edir. Təsadüfi deyil ki, oxucular hakim partiyanın qəzetinin səhifələrində dərc olunan yazıları, təqdim edilən fikirləri həm də dövlətin mövqeyi kimi qəbul edirlər. Populist mövzular, şayiə və dedi-qodu cızmaqaraçılığı bu qəzetin ruhuna yaddır. Yaxşı haldır ki, "Yeni Azərbaycan"çılar bu məsuliyyəti dərindən dərk edir, eyni zamanda, oxucu zövqünü oxşayan, günün tələblərinə doğru-dürüst cavab verə bilən yazıların bol olduğu bir qəzet buraxmaqda qətiyyətlidirlər.

Onu da demək lazımdır ki, zaman-zaman "Yeni Azərbaycan"ın səhifələrində müəyyən problematik məqalələr də yer alır. Bu isə, ilk növbədə, qəzetin baş redaktoru Alqış Musayevin, eyni zamanda, jurnalist məharətinə güvənən, hər cür xırda hisslərin fövqündə dayanan, dövlətçilik ideyalarına sadiq qələm sahiblərinin üstün keyfiyyəti sayılır.

Yubilyar kollektiv öz işini təkcə ənənəvi çap mediası olmaqla bitmiş hesab etmir. Qəzetin elektron media formatı da var, sosial şəbəkələrdə də layiqli yerini tutub, üstəlik, zamanın çağırışlarına cavab olaraq internet TV məkanına da daxil olur.

Biz də öz dəst-xətti ilə seçilən "Yeni Azərbaycan" qəzetinin yaranmasının 30 illiyi münasibətilə orada çalışan həmkarlarımızı təbrik edir, yüksək operativlik, yeni-yeni uğurlar və səmimi oxucu təqdiri arzulayırıq.

***"Xalq qəzeti"***

"Tərcüman" qəzeti – 140

# Türk dünyasının maarif və tərəqqi "Tərcüman"ı

**Türk xalqlarının düşüncəsində əzəmətli yer tutan, müsəlmanlar arasında maarifin intişarına və əski məktəblərin islahına çalışan, hər kəsin anlayacağı sadə dildə çıxan "Tərcüman" qəzetinin 140 yaşı tamam olur.**



"Tərcüman" qəzetinin ilk sayı 1883-cü il aprelin 10-da çıxıb və bu tarix təsadüfən seçilməyib. 1883-cü il aprelin 10-da Krımın Rusiya tərəfindən işğalının 100 illiyi tamam olurdu.

Qəzeti türk dünyasının böyük fikir və əməl xadimlərindən, Krım mirzələrindən olan İsmayıl bəy Qaspıralı dərc edib. Böyük Həsən bəy Zərdabinin "Əkinçi"-sindən sonra qısa zaman ərzində Rusiya imperiyasının türkdilli əhalisinin ümumi mətbuat orqanına çevrilib. "Dildə, fikirdə, işdə birlik!" şüarı ilə buraxılan bu qəzet Volqaboyu, Qafqaz, Orta Asiya və Sibirdə yayılıb və maraqla oxunub, türk xalqlarının maariflənməsi, dil və mədəniyyətinin təbliğində misilsiz xidmət göstərib. "Tərcüman"a görə, yalnız bir dinə inanan, bir dildə danışan türklər var. Qaspıralı məhəlli türk ləhcələri üzərində ümumi bir türk dilinin öyrənilməsinə çalışıb.

Xatırladaq ki, dövrünün böyük maarifçilərindən olan Qaspıralının ən böyük xidmətlərindən biri də milli ibtidai məktəblərin Rusiya türkləri arasında yayılması idi. İsmayıl bəy qəzet vasitəsilə çalışırdı ki, türk xalqları ortaq milli-mənəvi dəyərləri ilə bütövləşsin. Böyük maarifçinin bu sahədə güclü potensialı var idi. 1872-ci ildə – 21 yaşında dünyanı səyahətə çıxan istedadlı gənc Türkiyə, Misir, Əlcəzairdə şərq dillərini, Avropada olarkən Parisdə fransız dilini öyrənmişdi. Gəzdiyi ölkələrdəki qabaqcıl ictimai-siyasi görüşləri türk dünyasında yaymaq üçün vətəninə qayıtmışdı. Mükəmməl təhsil görmüş, zəngin biliyi olan İsmayıl bəy öyrəndiklərini, bildiklərini "Tərcüman" qəzetində çap edib. Qısa zaman ərzində xeyli maneələri aradan qaldıran İsmayıl bəy qəzetin tirajı, oxucularının sayını da artımağa nail olub. 1893-cü ildə qəzetin tirajı 1600-ə çatıb ki, bu da o dövr üçün ən böyük tiraj hesab olunurdu.

"Tərcüman" qəzeti uzun illər ərzində Azərbaycan ziyalılarının da oxuduqları sevimli türk qəzeti olub. Vaxtaşırı Bakı, Tiflis, Şuşa, Nuxa, Yelizavetpoldan bəhs edən qəzetin səhifələrində Azərbaycan həyatı daimi mövzu idi.

"Tərcüman" qəzeti 1883-cü ildən 1905-ci ilədək türk və rus, 1905-ci ildən 1918-ci ilədək isə yalnız türk dilində çap edilib.

Hər səhifəsi, hər cümləsi türk dünyasını, xüsusən, Rusiyada yaşayan müsəlman türklərini cəhalətdən oyanmağa, özünüdərkə, maarifə, elmə, öz haqları uğrunda savaşa səsləyən "Tərcüman" o dövrdə xalq tribunası sayılıb. Məhz buna görə müasirləri İsmayıl bəy Qaspıralıya türk dünyasının görkəmli maarifçisi kimi böyük ehtiram göstəriblər.

***L.QURBANOVA,***
***"Xalq qəzeti"***

# Azərbaycan vətəndaşları Ərdoğanı qalib görmək istəyir

**Mayın 14-də Türkiyədə Prezident və parlament seçkiləri keçiriləcək. Bu seçkilər Türkiyə və dünyanı olduğu kimi, Azərbaycanı da yaxından maraqlandırır. Azərbaycan–Türkiyə münasibətləri baxımından qarşıdan**



**gələn seçkilərin həssaslığı anlaşılandır. Bəs, Azərbaycan insanı Türkiyədə keçiriləcək Prezident seçkilərində kimin qalib gəlməsini istəyir? APA bu məqsədlə Bakı küçələrində vətəndaşlar arasında sorğu keçirib. Sorğunun nəticələrini təqdim edirik:**

**Nizam Süleymanov:** Türkiyənin son illər iqtisadi inkişafını və güclü dövlət kimi söz sahibi olmasını yüksək qiymətləndirirəm. Bunların hamısı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Qarşıdakı seçkilərdə Ərdoğanın yenidən qardaş ölkənin Prezidenti seçilməsini istəyirəm. Onu siyasətçi kimi, bir lider kimi çox sevirik. Ərdoğan ölkə başçısı seçiləndən Türkiyə dövləti çox qabağa getdi, dünyada söz sahibi ölkələrdən biri oldu. Həm iqtisadiyyatı, həm hərbi cəhətdən Türkiyənin inkişafı göz qabağındadır. O Türk dövlətlərinə hər zaman dəstəkdir. O böyük Turanın, onun ordusunun qurulmasını istəyir. Biz onu dəstəkləyirik. Seçkilərdə ona uğurlar arzu edirik.

**Mirheydər Abbasov:** Türkiyənin son dövrlərdə inkişaf etməsi, iqtisadi baxımdan güclənməsi bizim üçün fəxrdir. Biz qardaşıq, onların güclü olması bizim üçün yaxşıdır. Bizə arxa və dayaqdırlar. Türkiyəni hazırda çətin seçkilər gözləyir. Birmənalı olaraq Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyə Prezidenti seçiləcəyinə əminəm. Çünki onun rəqibinin çıxışlarına baxıram. Yalnız boş və avantürist bəyanatlar verir. Ərdoğan isə böyük siyasətçi, böyük şəxsiyyətdir. Hazırda Türk dünyasının böyük liderlərindən biridir.

**Məhəmməd Hümbətov:** Türkiyə böyük dövlətdir. Müsəlman aləminin qüdrətli, böyük dövlətidir. 1970-80-ci illərdə Turqut Özalın rəhbərliyi altında Türkiyə böyük sıçrayış elədi. Bununla da Türkiyə dünyada inkişaf etmiş dövlətlərdən biri oldu. Heç də təsadüfi deyil ki, hazırda da NATO kimi təşkilatın üzvüdür. Türkiyənin apardığı siyasət və Azərbaycana göstərdiyi diqqət qiymətləndirilməlidir. Hazırda biz onlarla fəxr etməliyik.

Türkiyə hazırda seçkiyə hazırlaşır. Açığı indidən kimin prezident seçilməsini bilmək olmaz. Amma Ərdoğanın yenidən prezident seçilməsi arzuolunandır. Bu, Azərbaycanın gələcəyi nöqtəyi-nəzərindən də çox vacib amildir. Ərdoğan dünya siyasətində öz yeri olan siyasətçidir, onun xüsusi çəkisi var. Əsas odur ki, o, Azərbaycanın dostudur.

**Təranə Yusifova:** Türkiyə bizim qardaş ölkəmizdir. Hər zaman onların güclü olması bizim də güclü olmağımız deməkdir. Onların insanı bizim insanımızdır. Onların sevinci, kədəri bizim sevinc, kədərimizdir. Qarşıda seçki var. Birmənalı olaraq Ərdoğanın seçkidə qalib olmasını arzulayırıq. Düşünürəm ki, dünyada onun kimi siyasətçi azdır. Hər yerdə öz sözünü, dövlətinin, ümumiyyətlə, türk dünyasının sözünü deyir və müdafiə edir.

Ərdoğan türk dünyasını birləşdirmək üçün də yorulmadan səy göstərir. Bu səbəbdən bizim üçün, ümumiyyətlə, dünyada yaşayan türklər üçün ən yaxşısı Ərdoğanın yenidən Prezident olmasıdır.

**Əliqardaş Məmmədov:** Türkiyə son dövrlərdə iqtisadi baxımdan çətinliklərə düşüb. Bunun bir səbəbi də ölkədə baş verən təbii fəlakətlərdir. Türkiyə böyük dövlətdir və iqtisadi baxımdan da qüdrətlidir. Zəlzələ isə onları bir az geri saldı. Qarşıdan gələn seçki prosesi çox ağır olacaq. Amma Ərdoğanın qalib olacağına ümid edirəm. İstər öz vətəndaşlarının, istərsə də xarici vətəndaşların ona sevgisi var. Zəlzələnin nəticələrinin aradan qaldırılması üçün də Ərdoğanın əlaqələri lazımdır. Onun xarici ölkə başçıları ilə əlaqələri çox yüksək səviyyədədir. Böyük siyasətçi, uzaqgörən insandır. Milli kimliyə sahibdir. Məncə əsas amillərdən biri də odur ki, rəhbər dövlətini, millətini sevsin.

**Nəsimi Əhmədov:** Ərdoğan hardadırsa, demək ki, orda işıq var. Ərdoğan varsa, Türkiyə xalqı əziyyət çəkməyəcək. Dövlət başçısı kimi öz xalqını, millətini sevir. Türk dövlətini sevən, onların birləşməsini sevən insandır. Onların bir-birinə dayaq olmasını istəyən dövlət başçısıdır.

**Aydın Məmmədov:** Türkiyədə hazırda iqtisadi baxımdan zəiflik yaranıb. Ölkədə zəlzələnin də təsiri çoxdur. Düşünürəm ki, bu seçkilərdə Ərdoğan qalib gələ bilməyəcək. Türkiyə seçicisinin bu dəfə Kamal Kılıçdaroğlunu seçəcəyini düşünürəm. Ərdoğan siyasətçi kimi dünyada tanınır. Sadəcə, son hadisələr seçkilərə təsir göstərəcək.

**Elçin Nağıyev:** Türkiyə istənilən sahədə inkişaf edir. İstər iqtisadi, istər sosial, istərsə də hərbi baxımından. Hərbi baxımından inkişaf lap yüksəkdir. Artıq Türkiyə öz silahlarını, pilotsuz uçuş aparatlarını dünyaya satır. 44 günlük müharibə vaxtı Türkiyə hərbi sənayesinin gücünü bütün dünya gördü. Bunların hamısı Ərdoğanın dövründə baş tutdu. Bu səbəbdən deyə bilərəm ki, Ərdoğan hakimiyyəti dövründə Türkiyə çox inkişaf etdi. İndiki zamanda mənim fikrimcə, Ərdoğanın seçkidə qalib gəlməsi lazımdır. Lakin seçimi Türkiyə vətəndaşları edir. Öz daxili vəziyyətə uyğun seçimlərini edəcəklər. Ərdoğan böyük şəxsiyyət, dahi liderdir.

**Gülağa Rəhimov:** Türkiyə böyük dövlətdir. İstənilən sahədə inkişaf edir. Sözün əsl mənasında Türkiyə dünyada sözünü deyən ölkələrdəndir. Ərdoğan da bu dövlətə doğru liderlik edir. Keçiriləcək seçki ilə bağlı digər namizədlərin platformalarını izləyirik. Düşünürəm ki, layiqli namizəd məhz Ərdoğandır. Neçə illərdir ölkəyə rəhbərlik edir. Onun hakimiyyəti dövründə Türkiyə inkişaf edib. 44 günlük Qarabağ savaşında bizim ən böyük dəstəkçimiz də Türkiyə və onun başçısı Ərdoğan olub. Bu səbəbdən onun yenidən seçkilərdə qalib gəlməsini istəyirəm.

**Şəbnəm Rəhimova:** Türkiyə güclü dövlətdir. İqtisadi baxımda inkişaf edir. Qardaşıq, onların güclü olması bizim üçün də yaxşıdır. Seçki prosesi baxımından onu deyə bilərəm ki, biz Ərdoğanın yenidən Prezident seçilməsini arzulayırıq. Lakin Türkiyədə seçki elə prosesdir ki, seçimi öz vətəndaşları edəcək. Amma düşünürəm ki, onlar da bizim kimi, Ərdoğanı güclü lider kimi tanıyırlar və yenidən ona güvənəcəklər.

**Kifayət Sərdarova:** Əslində, şanslıyıq ki, Türkiyə kimi güclü qardaş ölkəmiz var. Bütün çətinliklərdə bizim yanımızdadırlar. Bunu 44 günlük Vətən savaşında da bizə sübut etdilər. Millətlərinə, dövlətlərinə önəm verən xalqdır. Ən əsası, onları sevən, dəyər verən liderə malikdirlər. Ərdoğan güclü və sözünü deyən liderdir. Bu seçkilərdə qalib gələcəyinə inanıram və uğurlar arzu edirəm.

**Lalə Kazımova:** Türkiyənin son 10 ildə güclənməsini hiss etmirəm. Sosial şəbəkələrdə, KİV-də Türkiyəni izləyirəm, vətəndaşlarının şikayətlərinə baxıram. Hamı narazıdır. Ərdoğana qarşı sərt fikirlər səsləndirilir. Mən onlarla çox razıyam, düşünürəm ki, Ərdoğana verilən vaxt bitməlidir. Türkiyəyə yeni nəfəs, yeni lider gəlmədir.

**Sayad Əlizadə:** Türkiyə inkişaf etmiş ölkədir, lideri də sözünü deyəndir. Ərdoğan çox təcrübəli insandır. Mütləq yenidən seçkilərdə qalib gəlməlidir. Xalq da onu sevir. Bütün dövlətlərin başçıları ilə münasibət qurmaq qabiliyyəti var. Türkiyə öz gücünə, sözünə və liderinə arxayındır. Bu səbəbdən Ərdoğana sevgimiz, dəstəyimiz var.

**Xaləddin Hüseynov:** Türkiyə bizim üçün həm din, həm qardaşlıq baxımından dəyərlidir. Dünyada söz sahibidir. Hər zaman qardaş qardaşa arxalanır. Seçkidə də birmənalı olaraq Ərdoğan qalib gələcək. Ərdoğanın dünyada misli-bərabəri yoxdur. Mənəviyyatı, tərbiyəsi, insani keyfiyyətləri də öz yerində. O, bütün bəşəriyyətə öz humanistliyini, öz dəyərini göstərib.

**Heydər Əliyev – 100**

## Ümummilli liderin xatirəsinə həsr olunmuş tədbirlər



**İqtisadiyyat Nazirliyinin əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.**

İntellektual oyunda nazirliyin strukturlarının və tabeliyindəki qurumların əməkdaşlarından ibarət 31 komanda iştirak edib. Üç mərhələdən ibarət yarışda iştirakçılar müxtəlif mövzularda suallara cavab tapmağa çalışıblar.

***



**Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil olunub.**

Aksiya zamanı qəsəbədə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib və onlara aqrotexniki qulluq göstərilib.

***



**Tovuz Rayon İcra Hakimiyyətinin və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Tovuz nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisidir" mövzusunda intellektual turnir keçirilib.**

Əsasən Azərbaycanın tarixi, mədəniyyəti, ümumi dünyagörüşü və ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı suallara cavab axtarılan intellektual turnirdə 20-ə yaxın idarə, müəssisə və təşkilatların komandaları iştirak edib.

***"Xalq qəzeti"***

*Türkiyədən məktub*

# Zəngəzur dəhlizi "Yeni ipək yolu"nun önəmli hissəsi ola bilər



**"Zəngəzur dəhlizinin açılışı təkcə Azərbaycan və bölgə ölkələrinə deyil, Çindən, hətta Yaponiya və Koreyadan başlayaraq Qərb ölkələrindəki geniş bir coğrafiyaya əhəmiyyətli və müsbət təsirini göstərəcək". Ankara Universiteti Asiya-Sakit Okean Tədqiqatları Tətbiq və Araşdırma Mərkəzinin müdiri, professor Əli Merthan Dündar Zəngəzur dəhlizinin regiondakı rolu barədə "Xalq qəzeti"nə bu açıqlamasının davamında bildirdi:**



–Bu dəhlizin açılması, əslində, Ermənistanın özü üçün hamıdan artıq gərəklidir. 30 ildir ki, dünyaya haray salıb ki, bizi blokadaya alıblar. İndi yollar açılır, qoşulmaq istəmir, yeni təhlükələrdən dəm vurur. Məsələyə geniş perspektivdən baxsaq, bu dəhşizin açılması ilə nəinki Azərbaycan, Türkiyə, İran, Ermənistanın, eləcə də Rusiya, Orta Asiya, Çin, Koreya, Yaponiyaya qədər çox geniş bir ərazinin bir-birinə bağlanması çox asanlaşacaq.

Qısaca olaraq belə deyə bilərik ki, Zəngəzur dəhlizi Çinin əvvəlcə "Bir nəsil, bir yol" sonra isə "Nəsil-yol" adlandırdığı XXI əsrin yeni ipək yolu layihəsinin tərkib hissəsi ola bilər. Çünki Zəngəzur dəhlizi elə bir coğrafiyada yer alıb ki, onun mövqeyi orta yol, orta xətt olaraq, həqiqətən də, böyük əhəmiyyətə malikdir.

**Həmsöhbətimiz dəhlizin açılmasında əngəllərin olduğunu da istisna etmədi və kontekstdə dünya güclərinin məqsədli şəkildə Türk xalqlarını bir-birindən ayırmaq üçün apardıqları ədalətsiz siyasətə və maneələrə də toxundu:**

–Sovet rejiminin Zəngəzuru Ermənistana verməklə Azərbaycan ilə Naxçıvanı bir-birindən aralı salması günümüzdəki ən böyük problemlərdən biridir. Məlumdur ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiya bağlantısının yaradılmasını özündə ehtiva edən maddə yer almışdı. Ermənistanın Meqri rayonunun ərazisindən keçəcək Zəngəzur dəhlizinin yaradılması bütün region dövlətlərinin maraqlarına cavab verir.

Bəyanatda sözügedən dəhlizin təhlükəsizliyinin Ermənistan tərəfindən təmin edilməsi kimi bir maddə də yer alıb. Ancaq yuxarıda da qeyd etdiyim kimi, ədalətsiz ərazi bölgüsünün nəticəsi olaraq bu torpaqları öz ərazisi hesab edən ermənilər, yəqin ki, Zəngəzur adını da qəbul etmirlər. Beləliklə də, hər hansı bir dəhlizin açılacağı fikrini yaxına buraxmaq istəmirlər. Şübhəsiz ki, onlar bu bəhanələrlə bölgədə çıxılmaz vəziyyət yaratmağa çalışırlar.

**Zəngəzur dəhlizinin Türk dünyasının gələcəyi baxımından çox əhəmiyyətli olduğunu söyləyən professor Azərbaycanın qardaş və dost ölkələrlə əlaqələrində hər hansı bir problem olmadığını, bu dəhlizin Türkiyə, Naxçıvan və Azərbaycanı bir-birinə daha möhkəm şəkildə bağlayacağını dedi:**

–Belə olan halda, sadəcə, tərəflər – Ermənistan, Gürcüstan, Azərbaycan, Türkiyə, İran, Rusiya məhdud iştirakçı qpup sayılmır. Çin, Avropa İttifaqı kimi fərqli qüvvələr də layihəyə cəlb olunmalıdır. Maraq dairəsi böyüdükcə bu məsələnin reallaşması daha da tezləşə bilər. Bu mənada tərəflərin bir masa ətrafında oturub müvafiq qərar verməléri məsələnin həllini sürətləndirər.

Digər tərəfdən, Türk dünyasının birləşməsini istəməyən İran da bu vəziyyətdən narahatdır. Ancaq İran başa düşməlidir ki, eyni köklərə bağlı, eyni dili, mədəniyyəti, tarixi paylaşan xalqların bir-biriləri ilə mədəni, ticari, iqtisadi əlaqələr qurmaq cəhdləri təbiidir və bu, gec-tez baş verəcək.

**Professor sonda onu da əlavə etdi ki, Azərbaycan Qarabağ zəfərindən sonra öz haqqı olan torpaqlarda 30 illik işğalın fəlakət və dağıntılarını ortadan qaldırmağa çalışır:**

–Bölgədə yenidənqurma işləri aparmaq məcburi köçkünləri, bunun ardınca Qərbi Azərbaycandan qaçqınları öz torpaqlarına geri qaytarmaq üçün zəruri hazırlıqdır. Eyni zamanda, öz torpaqlarından didərgin düşən bu insanların bölgədə yenidən həyatlarını bərpa etmələrinə, ticarətlə, sənətlə, istehsalla məşğul olmalarına şərait yaratmaq daha ağır və məsuliyyətli bir işdir. Amma inanıram ki, Azərbaycan dövləti bu işin öhdəsindən gələcək. Çünki o gücü və bacarığı var. Şübhəsiz, Türkiyə dövləti də, hər zaman olduğu kimi, bu məsələlərdə də Azərbaycan dövlətinin, qardaşlarımızın yanında olacaq.

**Söhbəti hazırladı:**
**M.SULTANOVA**

**Ankara**

**Zərifə Əliyeva – 100**

## Dünya şöhrətli oftalmoloqun xatirəsinə ehtiram



**Dünən Ədliyyə Nazirliyində dünya şöhrətli oftalmoloqun 100 illik yubileyi münasibətilə Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası tibbi aksiya təşkil edib.**

Aksiyanın əvvəlində bildirilib ki, Zərifə Əliyevanın yüksək ixtisaslı tibbi kadrların hazırlanmasında, oftalmoloq-həkimlərin peşəkarlığının artırılmasında rolu danılmazdır. Görkəmli alimin göz xəstəliklərinin aşkarlanması, müayinə-müalicə və diaqnostikası ilə bağlı sanballı tədqiqatları oftalmologiya elminin inkişafına mühüm töhfələr verib.

Sonra aksiyada əməkdaşların, ədliyyə orqanlarında çalışan Vətən müharibəsi iştirakçılarının və onların ailə üzvlərinin klinikanın həkim-oftalmoloqları tərəfindən oftalmoloji müayinələri aparılıb, zəruri tövsiyələr verilib.

***"Xalq qəzeti"***

## Müdafiə naziri yeni hərbi hissədə olub

**Azad edilmiş ərazilərə səfər edən müdafiə naziri general-polkovnik Zakir Həsənov yeni istifadəyə verilən hərbi hissəyə baxış keçirib, burada yaradılan şəraitlə tanış olub.**



Nazirə məruzə edilib ki, şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün burada qərargah binası, yataqxana, xidməti otaqlar, tibb məntəqəsi və digər infrastruktur obyektləri tikilib, müasir avadanlıqlarla təchiz olunub. Yeni qərargahda müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş rabitə qovşağı və server otağı da var.

Yaradılan şəraitlə tanış olan müdafiə naziri qərargah zabitlərinin və komandir heyətinin fərdi bacarıqlarının, eləcə də bölmələri idarəetmə qabiliyyətinin daha da artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi barədə göstərişlər verib.

***"Xalq qəzeti"***

## Qərbi Azərbaycan İcması BMT-ni Ermənistana missiya göndərməyə çağırıb

**Qərbi Azərbaycan İcması BMT-nin Baş katibi Antonio Quterreşə məktub göndərərək Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtması prosesinə başlamaq üçün bu ölkəyə BMT-nin xüsusi missiyasının göndərilməsini xahiş edib.**

Qərbi Azərbaycan İcmasından redaksiyamıza daxil olan müraciətin mətnində daha sonra bildirilir: "Maraqlı tərəf olaraq, biz Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnun təmin edilməsi istiqamətində fəaliyyətin həyata keçirilməsində BMT ilə qarşılıqlı əməkdaşlıq etməyə və bununla da regionda ədalətin, sülhün və təhlükəsizliyin bərqərar edilməsinə yardım etməyə hazırıq".

***"Xalq qəzeti"***

# Rusiya yeni düzən, Ukrayna qələbə sevdasında

**Rusiya-Ukrayna müharibəsinin taleyi dünyanın gündəmində bir nömrəli məsələ olaraq qalmaqdadır. Bu məsələ ətrafında hər gün müzakirələr aparılır. O, Çində danışıqların predmeti olur, Türkiyədəki görüşlərdə əsas mövzuya çevrilir, BMT-də qaldırılır, başqa təşkilatlarda, NATO-da, Avropa İttifaqında müzakirə olunur, ikitərəfli, çoxtərəfli danışıqların masasına çıxarılır. Hamı bu müharibənin tez, mümkün olarsa, lap bu gün başa çatmasını, sülh yaranmasını istəyir. Amma müharibə tərəflərinin də, onlara dəstək vermək iddiasında bulunanların da öz maraqları var və bu maraqlar ağır, dağıdıcı münaqişənin bitməsinə, Ukrayna xalqının, eləcə də rus xalqının böyük faciədən xilas olmasına imkan vermir.**



Son günlərdə Ukrayna böhranı Türkiyədə geniş müzakirə olundu. RF XİN başçısı Sergey Lavrov bu ölkədə səfərdə oldu, türk həmkarı Mövlud Çavuşoğlu ilə, dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla görüşdü. Söhbət, təbii ki, sülhdən getdi. Amma bu sülhü necə əldə etməli? Bax, bu suala cənab Lavrovun cavabı hələ "bu xəmirin çox su aparacağını" göstərdi.

S.Lavrov qəti şəkildə bəyan etdi ki, ölkəsi Ukraynada müharibənin başa çatması üçün dünya düzəninin dəyişməsini tələb edir. Onun sözlərinə görə, Moskva məsələnin sülh yolu ilə nizamlanması üçün Qərb ölkələrinin qarantiyasına ehtiyac duyur: "Söhbət ondan gedir ki, yeni dünya düzəni hansı prinsiplərə əsaslanacaq: bizim hamımıza lazım olan, yoxsa dünya düzəni adına birtərəfli, bizim prezidentimizin dediyi kimi, "bir hegemonun bir düzəni" prinsipinə? Rusiya dövlətlərin böyük əksəriyyəti ilə birgə istəyir ki, yeni dünya düzəni BMT Nizamnaməsinin kollektiv Qərb tərəfindən birbaşa pozulan prinsiplərə əsaslansın".

Amma təəssüflər olsun ki, Lavrovun "kollektiv Qərb" adlandırdığı tərəf bu istəklərdən çox uzaqdır. "Kollektiv Qərb" yeni dünya düzənini bir tərəfin hegemonluğu üzərində qurmağa çalışır və birbaşa bəyan edir ki, Ukrayna müharibəsi Rusiyanın məğlubiyyəti ilə başa çatmalıdır. Yaxud Rusiya məğlub olmayınca Ukraynada müharibə başa çatmayacaq.

RF XİN başçısı türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransında onu da bildirib ki, Rusiya Ukrayna ərazisindəki vəziyyətin nizamlanması üçün danışıqlardan imtina etmir: "Həm prezident, həm də Rusiya nümayəndə heyəti dəfələrlə bildiriblər ki, biz danışıqlardan imtina etmirik. Lakin danışıqlar yalnız bizim qeyd etdiyimiz əsasda, Rusiyanın maraqları və qanuni narahatlıqlarının nəzərə alınması əsasında aparıla bilər".

Buradaca qeyd edək ki, Rusiyanın maraqları çərçivəsində nizamlama birinci növbədə "ev sahibinə" – Ukraynaya sərf etmir, ikinci növbədə isə onun müttəfiqi olan "kollektiv Qərb" bu fikri yaxına belə, buraxmır. Çünki bu fikir özündə İkinci Dünya müharibəsi nəticəsində formalaşmış sərhədlərin dəyişdirilməsinə gətirib çıxarır ki, bu da dünyada qarşısıalınmaz presedentlərə səbəb ola bilər. Yəni nə Kiyev, nə də "kollektiv Qərb" Ukraynanın ərazi bütövlüyünün pozulması ilə razılaşmır. Ukrayna birmənalı olaraq rus qoşunlarının ölkənin bütün ərazisindən, o cümlədən Krımdan çıxarılmasında israrlıdır. Deməli, heç kim, heç bir tərəf "küreyini yerə qoymaq" istəmir. Belə olan halda isə hansı sülhdən danışmaq olar?!

Odur ki, qarşılıqlı ittihamlar, ziddiyyətlər, bunlarla paralel ağır, dəhşətli döyüşlər davam edir. Donbas xarabalığa çevrilir, hər iki tərəf böyük insan itkisi ilə üzləşir. Ukraynaya ən müasir Qərb silahları göndərilir. Rusiya özünün cəbbəxanasını dost hesab etdiyi ölkələrin müasir hərbi texnikaları, xüsusən İran PUA-ları ilə zənginləşdirir. Belarusda yeni, təhlükəli silahlar yerləşdirəcəyini bəyan edir. Bəzən müharibə Rusiya ərazisinə keçir, Ukrayna ilə sərhədə yaxın Brayansk ərazilərinə zərbələr endirilir.

Dünənki məlumatlara görə, Ukrayna ordusunun bölmələri Rusiyanın Bryansk vilayətindəki sərhədçilərin bazasına zərbə endirib. Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsindən bildirilib ki, Rusiya sərhədçiləri arasında xeyli ölən və yaralanan olub. Bu, rus hərbçilərin söhbətinin əks olunduğu audioyazıdan məlum olub.

Bundan əlavə, artıq xeyli vaxtdır ki, Ukraynanın yaz hücumuna başlayacağı haqqında xəbərlər dolaşmaqdadır. Doğrudur, artıq yazın ikinci ayının birinci rübü başa çatır, amma belə bir hərəkatın başladığını görmürük. Bununla belə, yaz hücumu ilə bağlı yeni-yeni xəbərlər alırıq.

Dünənki məlumata görə, Ukrayna rəhbərliyi yazda əks-hücum əməliyyatına başlamaq üçün çağırışçıların böyük səfərbərliyinə hazırlaşır. "Foks Nyus"un analitiki Corc Barros bu barədə özünün məqaləsində qeyd edib: "Biz Ukraynanın əks-hücumu ərəfəsindəyik".

Siyasi şərhçinin fikrincə, yeni səfərbərliyə cəlb edilənlərin sayı 2022-ci ilin payızındakı tədbirdən təxminən iki dəfə çox olacaq.

Bəli, hələ ki, silahlar əldədir, onları heç kəs yerə qoymaq istəmir. Bu isə o deməkdir ki, hələ Rusiyanın istədiyi yeni dünya düzəni haqqında düşünən və danışan yoxdur. Hələ ki, bütün söhbətlər və diqqətlər "yaz hücumu" üzərində cəmləşib. Amma sülh prosesi də gündəlikdədir. Ağıllı başlar, xüsusən Türkiyə sülh istiqamətində ardıcıl və inadlı səylər göstərir. Üstəlik, bir məsələ var ki, bütün müharibələr sonda sülhlə başa çatır. Demək, sülh mütləq olacaq. Baxır hansı şərtlər daxilində...

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***



# "Dünya dollardan qurtulur"

## Le Figaro: ABŞ özünün dollar hökmranlığını devirmək üçün geriyə dönməyəcək bir prosesə başlayıb

**"Bretton Woods" müqaviləsi imzalanandan sonra ABŞ öz valyutası sayəsində ticarətdə hökmranlıq etməyə başladı. Lakin onların "dolları silaha çevirmək" üzərində nəzarəti Ukrayna münaqişəsi başlayandan zəifləməkdədir.**

Hələ 1965-ci ildə uzaqgörən general Şarl de Qoll keçirdiyi mətbuat konfransında "dolların əndazəsiz imtiyazını" kəskin tənqid etmişdi. 1946-1971-ci illər arasında ABŞ öz pul vahidini, bir unsiya üçün 35 dollar sabit məzənnə ilə qızıla dəyişməyə razılıq verəndən sonra dollar dünyanın əsas ehtiyat və mübadilə valyutasına çevrildi.

Mərkəzi banklar öz ehtiyatlarını yaratmaq üçün dollar almağa tələsdilər. Çünki bu valyutada olan əmanətlər qızıl kimi sabit, lakin daha asan idarə olunurdu. Amerikalılar çap maşınını işə salanda sanki qızıl istehsal edirdilər. De Qoll başa düşürdü ki, amerikalılar Vyetnamdakı müharibəni və kosmosun fəthini avropalıların hesabına maliyyələşdirirlər. Məhz buna görə də Fransa Bankı 1965-ci ildən sistemli şəkildə dollar ehtiyatlarını qızıla dəyişməyə başladı. Lakin 1971-ci il avqustun 15-də ABŞ heç bir müttəfiqini xəbərdar etmədən dolların qızıla mübadiləsini dayandırmaq haqqında qərar verdi.

1973-cü ildən başlayaraq "qara qızıl"ın qiyməti kəskin qalxdıqda (qaimə-fakturalar həmişə dollarla olurdu) neft dollarları problemi yarandı. Enerji bazarlarında sərbəst buraxılan böyük məbləğlər prioritet qaydada yenidən ABŞ bazarlarına sərmayə kimi yatırılırdı. Bu da, avropalı tərəfdaşların məyus olmalarına baxmayaraq, ABŞ iqtisadiyyatına böyük üstünlük qazandırırdı. „Dollar bizim pul vahidimizdir, amma sizin probleminizdir" – deyə, ABŞ-ın o vaxtkı maliyyə naziri Con Konnalli qızılla mübadilənin birtərəfli qaydada dayandırılmasından qısa müddət sonra belə bir xəbərdarlıq etmişdi.

### Dollar kralının devrilməsi

1999-cu ildə dövriyyəyə buraxılan avro dünya valyutası kimi uğur qazanırdı. Lakin Al-də vahid xəzinə olmadığı üçün avro nə Nyu-York bazarları ilə rəqabət apara, nə də dünyanın əsas ehtiyat və valyuta vahidi olan dolları devirə bildi. İstisnasız olaraq bilavasitə ABŞ-ın günahı ucbatından yaranmış 2008-ci il dünya maliyyə böhranı paradoks da olsa, dolları gücləndirdi. Barak Obama 2009-cu ilin martında keçirdiyi mətbuat konfransında ABŞ valyutasının dünya ticarətində və beynəlxalq ehtiyatlarda hökmranlığını qoruyub saxlayacağını proqnozlaşdırdı. Ancaq onun arqumenti iqtisadi yox, siyasi idi: "Çünki ABŞ dünyanın ən sabit və şəffaf ölkəsidir!"

Hamıya bəllidir ki, ABŞ büdcəsi, Federal Ehtiyatlar Sistemi və maliyyə sistemi necə işləyir. Amma onların çinli analoqları qeyri-şəffafdır. Ona görə dollar ən yaxşı sığınacaq-valyutası olaraq qalır. Belə ki, hətta qlobal maliyyə böhranı dövründə iqtisadi təhlükə ABŞ-ın öz günahı ucbatından yaransa belə, investorlar dolların köməyinə müraciət etməyə üstünlük verirlər. Bu, 2008-2009-cu illərdə dolların avro və yienə nisbətdə möhkəmlənməsi zamanı da baş vermişdi. Bu gün hələ də dollar dünya valyuta ehtiyatlarının 59 faizini (1999-cu ildə 72 faiz) təşkil edir. Lakin öz valyutalarını siyasi təzyiq alətinə çevirən amerikalılar, özləri də bilmədən, dollar kralını devirmək üçün ümumdünya hərəkatına başlayıblar.

### Dollardan silah kimi istifadə edilir

2014-cü ildə BNP bankı Avropa və Fransa qanunlarına söykənərək Kuba, Sudan və İrandan ixracı (dollarla) maliyyələşdirdiyinə görə ABŞ-a 9 milyard dollar cərimə ödəməli oldu, baxmayaraq ki, bu üç ölkə Avropa və Fransanın yox, ABŞ-ın embarqosu altında idi. Təzminat Nyu Yorkda BNP-nin (saniyənin milyonda birində e-poçt) hesabına həyata keçirildiyi üçün ABŞ-ın ədalət məhkəməsi öz ərazi yurisdiksiyasını elan etdi.

Amerikalılar öz qanunlarını başqa dövlətlərə bax, belə tətbiq edirlər. 2018-ci ildə Tramp 2015-ci il Vyana nüvə sazişini birtərəfli qaydada ləğv etdikdən sonra Avropa şirkətləri də İranı tərk edərkən görünür, elə buna boyun əyməli oldular.

"Dolların silaha çevrilməsində" növbəti addım Putinin Ukraynada xüsusi əməliyyata başlamasından sonra - 2022-ci ildə Rusiya Mərkəzi Bankının valyuta ehtiyatlarının dondurulması oldu. Qərbdən fərqli olaraq digər ölkələrin liderləri bundan sonra özlərinə sual etdilər: "Əgər mən qonşu ilə döyüşsəm və bu münaqişə Vaşinqtonun xoşuna gəlməsə, mən birdən-birə valyuta ehtiyatlarımın böyük hissəsini itirə bilərəm. Ona görə də dollar ticarətinin həcmini azaltmalıyam". Moskva da indi məhz bunu edir, həmçinin Ər-Riyad da. Onun Çinə son neftə görə hesabı yuanla olub (Çinin də offşor bazarı artıq 200 milyard dollar ekvivalentindədir).

Bundan əlavə, BRICS ölkələri (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika) özlərinin ticarət mübadilələrini maliyyələşdirmək üçün valyutalarını yaratmağı planlaşdırırlar. Çində artıq daxili banklararası elektron hesablaşma sistemi hazırlanıb. Bu da Qərb tərəfindən idarə olunan SWIFT sisteminə alternativdir.

Doğrudur, dünyanın dollardan xilası bir gecədə baş tutmayacaq. Lakin bu, prosesin artıq geriyə dönüşünün olmadığını göstərir.

**Hazırladı:**
**İlqar RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

# Çin Tayvanda təlimlərə başladı



**Dünən Çin Xalq Azadlıq Ordusu (ÇXAO) Tayvan adasının şimalında, cənubunda və şərqində dənizdə və havada döyüş hazırlığı təlimləri və patrul fəaliyyətini birləşdirən əməliyyatlara başlayıb. Bu barədə ÇXAO-nun şərq qoşunları komandanlığı bəyan edib. Məlumatı TASS verib.**

Qoşun komandanlığının rəsmisi polkovnik Şi İ bildirib ki, hərbi təlim və patrul fəaliyyəti "Tayvanın müstəqilliyi"nə can atan separatçıların və onları dəstəkləyən xarici qüvvələrin təxribatlarına ciddi xəbərdarlıq, Çinin suverenliyinin və ərazi bütövlüyünün qorunması üçün vacib məsələdir. "Birgə qılınc" adlanan əməliyyat aprelin 10-dək davam edəcək.

Qeyd edək ki, Çinin ada ətrafındakı təlimləri Tayvan lideri Tsay İnvenin Mərkəzi Amerikaya səfəri zamanı Los-Ancelesdə ABŞ Nümayəndələr Palatasının spikeri Kevin Makkarti ilə görüşündən sonraya təsadüf edib. Rəsmi Pekin həmin görüşə etirazını bildirmişdi.

Xatırladaq ki, İkinci Dünya savaşından sonra Çində vətəndaş müharibəsində Mao Tzedonun rəhbərlik etdiyi kommunistlər 1949-cu ildə Çin Xalq Respublikasının (ÇXR) yaradıldığını elan ediblər. Çan Kayşinin liderliyində ki Koumintan qüvvələri Tayvan adasına köçərək Çin Respublikasının mövcudluğunun davam etdiyini bəyan edir. Ada Çin Xalq Respublikasının qurulmasından öncəki Çin Respublikasının bayrağını və bəzi atributlarını qoruyub saxlayır. Rəsmi Pekin isə Tayvandakı qondarma Çin Respublikasının mövcudluğunu qəbul etmir və adanı Çinin əyaləti hesab edir.

***"Xalq qəzeti"***

# ABŞ Avropa şirkətlərini Rusiya bazarından çıxarmaq istəyir



**"The Associated Press" agentliyi xəbər verir ki, ABŞ-nin Maliyyə Nazirliyi sanksiyalar və terrorizmin maliyyələşdirilməsi üzrə mütəxəssisləri Avropaya göndərməyə hazırlaşır. Məqsəd qitədəki Amerika və yerli şirkətlərin rəhbərlərini Rusiya bazarından çıxmalarının vacib olduğuna inandırmaqdır.**

Xəbərdə sonra qeyd edilir ki, nazirliyin rəsmiləri Liz Rozenberq və Brayan Nelson yaxın günlər ərzində bir sıra Avropa ölkələrinə səfər edərək Rusiya ilə hələ də iş aparan şirkətləri Ukraynaya qarşı davam edən müharibə səbəbindən Moskva ilə maliyyə əlaqələrinə son qoymağa səsləyəcəklər.

Mütəxəssislər İsveçrə, İtaliya və Almaniyanın maliyyə qurumlarının rəhbərləri ilə görüşəcəklər. Onlar qarşı tərəfə sanksiyalardan yayınan potensial şəxslər haqqında məlumatları paylaşmağı və müəyyən edilmiş beynəlxalq məhdudiyyətlərə əməl etməməyə görə mümkün cəzalar barədə xəbərdarlıq etməyi planlaşdırırlar.

***"Xalq qəzeti"***

# Təl-Əvivdə terror

**İsrailin paytaxtı Təl-Əvivdə terror aktı törədilib. İsrail mətbuatının məlumatına görə, minik avtomobilin piyadaların üzərinə sürülməsi nəticəsində 7 nəfər xəsarət alıb. Məlumatı "İnterfaks.ru" verib.**



Hadisə sahilyanı ərazidə baş verib. Avtomobil daha sonra çevrilib. Sürücü zərərsizləşdirilib. Terror aktı ilə bağlı araşdırmalara başlanılıb.

İsrail Xarici İşlər Nazirliyi Təl-Əvivdə baş vermiş insidenti terror aktı kimi qiymətləndirib. XİN hadisə nəticəsində 1 nəfərin öldüyünü, ən azı 6 nəfərin yaralandığını bildirib. Ölən və yaralananların hamısı xarici turistlərdir.

Qeyd edilir ki, terrorçu əvvəlcə avtomobillə bir neçə piyadanı vurub, sonra avtomobilindən düşərək silahla insanları güllələməyə cəhd edib. Bundan sonra polis onu zərərsizləşdirib.

İsrailin Baş naziri Benyamin Netanyahu Təl-Əvivdə törədilmiş terror aktından sonra hərbi polisin ehtiyatda olan bütün şəxsi heyətinin səfərbər edilməsi barədə göstəriş verib. Bundan başqa, əlavə ordu qüvvələrinin səfərbər edilməsi barədə də göstəriş verilib. Baş nazir vətəndaşları təhlükəsizlik xidmətlərinin göstərişlərinə əməl etməyə çağırıb.

***"Xalq qəzeti"***

“Azərbaycanfilm” – 100

# Milli kinomuzun ilk qaranquşları

**Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası – Azərbaycan Dövlət Kinostudiyası 1920-ci ildə "Azərbaycan XMK-nın İncəsənət Şöbəsi" adı altında təsis olunaraq tarixi təşəkkül və inkişaf mərhələləri keçib. Yubiley ərəfəsində təqdim etdiyimiz növbəti yazı milli kinomuzda qadın sənətkarların rolu barədədir. Onların kino naminə şərəfli olduğu qədər də çətin əməyinin tarixi gənc nəslə nümunədir.**

Teatr və kino tarixindən bizə yaxşı məlumdur ki, nəinki qadınlar, hətta kişilər – xalqımızın mütərəqqi fikirli insanları adamların maariflənməsi üçün çalışdıqlarına görə təhdidlərə məruz qalırdılar. “Dəli Kür” filmindəki rus Əhmədlə Çernyayevskinin uşaqları Qori seminariyasına oxumağa göndərmək barədə kəndlilərlə söhbətlərinin az qala onların ölümü ilə nəticələnəcəyini tamaşaçılar, yəqin ki, xatırlayırlar.



Çar məmurları, qoçular və fırıldaqçı mollalar belə ziyalıları, sənət adamlarını təqib edir, onları normal maarifləndirici fəaliyyət göstərməyə qoymurdular. “Üzeyir ömrü” bədii televiziya filmindəki gənc çayçını xatırlayaq. Həmin çayçı oğlan “Leyli və Məcnun” operasında Leyli rolunda çıxış etməyə razılıq verir. Lakin ilk çıxışdan sonra səhnəyə çıxmaqdan imtina edir. Bu dəfə onun əvəzinə Əhməd Ağdamski səhnəyə çıxır. O, nəinki bütün tamaşalarda, hətta “Arşın mal alan” (1916) səssiz filmində qadın rollarının ifaçısı kimi tanınır.

Faciə burasındadır ki, ötən əsrin əvvəllərində müsəlman qadınların teatr və kinoda oynaması namussuzluq hesab olunurdu. Yenə də “Üzeyir ömrü” filmindən bir epizodu xatırlayaq. Azərbaycanın opera və vokal sənətinin görkəmli xadimi Şövkət Məmmədova ilk dəfə səhnəyə çıxarkən qoçular onu az qala öldürəcəkdilər. Buna görə XX əsrin əvvəllərində ölkəmizdə bədii kino yarananda qadın rollarını kişilər və qeyri-millətlərdən olan qadınlar ifa edirdilər.

Misal üçün, 1915-ci ildə Bakıda istehsal olunmuş “Neft və milyonlar səltənətində” bədii filmində Şəfiqə rolunu Piontkovskaya, Cəlilin anasını Orlibskaya oynamışlar. “Arşın mal alan” kinokomediyasında Asya və Telli rollarını Olenskaya bacıları, digər qadın rollarını kişilər– Əhməd Ağdamski (Gülçöhrə), Yunis Nərimanov (Cahan xala) ifa etmişlər.

Azərbaycan sovetləşəndən sonra qadınlara kişilərlə bərabər işləmək, ictimai həyatda fəaliyyət göstərmək imkanı verilsə də, onların əksəriyyəti çadrasız gəzsələr də, filmlərdə yenə də qeyri millətlərdən olan qadınlar oynayırdılar. Məsələn, 1924-cü ildə çəkilmiş “Qız qalası” kinodramında xanın arvadı və qızı rollarında sirk artisti Sofya Jozeffi çıxış etmişdir. “Bismillah” sosial dramında (1925) isə K.Vyaznova Zeynəb, T.Vişnevskaya Hökumə rollarına çəkilmişlər.

Yalnız 20-ci illərin sonundan ilk milli teatr aktrisaları ekranda görünməyə başlayır. Beləliklə, 1928-ci ildə istehsal olunmuş “Hacı Qara” kinokomediyasında Heydərin anası rolunda Mərziyə Davudova, Gülsüm rolunda isə Əzizə Məmmədova çəkilmişlər. Bu aktrisalar sonralar da Azərbaycan kino tarixində özlərinə layiq iz qoymuşlar.

Görkəmli sənətkarımız C.Cabbarlının kino üçün kəşf etdiyi İzzət Orucova onun iki filmində “Sevil” melodramında (1929) Sevil, “Almaz” kinopovestində (1936) Almaz rollarında oynamış, adı milli kino tarixinə ilk kinoaktrisa kimi daxil olmuşdur. Sonralar o, Neft Akademiyasını bitirib kimya üzrə məşhur alim olur, onu bütün dünya tanıyır.

Azərbaycan kinosunun ilk kinoaktrisalarından biri Opera və Balet Teatrının solisti, görkəmli müğənni Həqiqət Rzayevadır. O, “Lətif” filmində (1930) ögey ana, “İsmət” filmində (1934) Həqiqət, “Ögey ana” məişət dramında (1958) Qəmər nənə rollarında oynamışdır.

Xalqımızın sevimli sənətkarlarından biri də SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Hökumə Qurbanovadır. O, aktyorluq fəaliyyətinə 1935-ci ildə, 22 yaşında “Azərfilm” kinostudiyasında başlamış və “Almaz” filmində (1936) Yaxşı rolunda çəkilmişdir. Bu filmdəki uğurundan sonra Akademik Dram Teatrına dəvət olunmuşdur. Hökumə xanım sonralar da filmlərə çəkilmiş, “Bir ailə”də Leyla, “Onu bağışlamaq olarmı?”da Kəmalə, “Həyat öyrədir”də həkim, “Əmək və qızılgül”də Bukətu, “İnsan məskən salır”da Şamama obrazlarını yaşatmışdır.

Sonrakı illərdə kinomuzda çalışan qadınların sayı xeyli çoxalmışdır. Azərbaycan kinosunun inkişafında xidmətləri olan onlarca qadın sənətkarlarımızın adlarını çəkə bilərik: rejissorlardan Qəmər Salamzadə (ilk milli qadın rejissor), Zeynəb Kazımova, Gülbəniz Əzimzadə, Firəngiz Qurbanova, aktrisalardan Leyla Bədirbəyli, Münəvvər Kələntərli, Nəcibə Məlikova, Nəsibə Zeynalova, Şəfiqə Məmmədova, Həmidə Ömərova, Ayan Mir-Qasım və bir çox başqaları. Hamısı da istedadlı və məşhur.

Lakin məqalənin əvvəlində haqlarında söhbət açdığımız qadın sənətkarlarımızdan hər birinin kinoda gördüyü işlər sevindirici olsa da, çətinliklə başa gəlirdi. Çünki o zamanlar ekrana, səhnəyə çıxmaq heç də adi məsələ deyildi. Onlar qoçular, millət dərğaları tərəfindən təqib olunur, təhqir edilir, hətta ölümlə hədələnirdilər. Bütün bunlara baxmayaraq, qadın sənətkarlarımız birincilər idi, milli kino sənətimizin ilk qaranquşları idi.

***Aydın KAZIMZADƏ,***
***kino tədqiqatçısı***

Salam Qədirzadə – 100

# Bu gün də sevilən yazıçı



**Gənclik çağlarımızda onun kitablarının əl-əl gəzdiyini gözəl xatırlayıram. “Qış gecəsi”, “46 Bənövşə”, “Kəndimizdə bir gözəl var”, “Sevdasız aylar” kimi romanları xəyallarımızı göylərə qanadlandırırdı. Təxminən 45 il əvvəl Sumqayıtda keçirilən tədbirlərin birində Salam Qədirzadənin özü ilə görüşüb tanış olanda hədsiz dərəcədə sevindim. Birlikdə çəkildiyimiz şəkli də əziz xatirə kimi qoruyub saxlayıram. Onunla, həmçinin İshaq İbrahimov, Fikrət Qoca, Pənah Xəlilov, Vaqif İbrahim və başqaları ilə birlikdə çəkilən həmin şəkildə unudulmaz bir an əbədiləşib.**

İndi 100 yaşı tamam olan Salam Qədirzadə hələ uşaq yaşlarından ədəbiyyata böyük həvəs göstərib. Şeir və hekayələr yazıb, ədəbi dərnəklərə gedib. Orta məktəbdən sonra məhz bu sahədə təhsil almağı planlaşdırırdı. Lakin İkinci Dünya müharibəsi həmin arzuları ertələdi 18 yaşında könüllü şəkildə cəbhəyə yola düşdü. Davanın od-alovundan keçdi. Cəbhələrdə göstərdiyi şücaətə görə III dərəcəli Şöhrət ordeni, “İgidliyə görə” və sair medallarla təltif olundu.



Müharibənin arzularını düz 5 il təxirə saldığı gənc Salam ordudan tərxis edildikdən sonra elə həmin səbəbdən tikintisi yarımçıq qalmış Sumqayıta gələrək fabrik-zavod təhsili məktəbində müdir müavini vəzifəsinə təyin edilib. 1948-ci ildə universitetinin filologiya fakültəsinin qiyabi şöbəsinə daxil olub və respublika radiosunun yerli verilişləri üzrə məsul redaktoru vəzifəsində çalışıb. Daha sonra M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutuna təhsil almağa göndərilib. Moskvada tələbə ikən diplom işi olaraq yazdığı “Gənclik” povestini “Detgiz” nəşriyyatı ayrıca kitab şəklində nəşr edib. Qəlbi yaradıcılıq həvəsi ilə döyünən gənc Bakıya qayıdandan sonra Azərbaycan Yazıçılar İttifaqının orqanı olan “Azərbaycan” jurnalında çalışıb. Uzun illər “Kirpi” satirik jurnalında işləyib, beş il jurnalın baş redaktoru da olub. Onunla birlikdə işləmiş sumqayıtlı qələm dostum Zümrüd Baloğlanova həmişə Salam Qədirzadənin yüksək insani keyfiyyətlərindən, yumşaq ürəkli, lakin prinsipial bir rəhbər olmasından ağızdolusu danışır.

Salam Qədirzadə 35-dək kitabın müəllifidir. Oxucuların səbirsizliklə gözlədiyi əsərləri ən yüksək tirajlarla nəşr olunub. O, dramaturq kimi də tamaşaçıların rəğbətini qazanıb, pyesləri təkcə Azərbaycanda deyil, Ukrayna, Moldova və digər ölkələrdə səhnəyə qoyulub. “Hardasan, ay subaylıq?”, “Həmişəxanım”, “Gurultulu məhəbbət”, “Şirinbala bal yığır” kimi komediyaları indi də gündəmdədir.

Unudulmaz yazar yaradıcılıq baxımından çox dolgun, ömür baxımından isə cəmi 64 illik bir bir həyat yaşayıb. “Hər gün ömürdən gedir” adlı son kitabını görmək ona qismət olmasa da, inamla deyə bilərik ki, Salam Qədirzadə ömrünün hər gününün qədrini bilib, yaradıcılığının şəhdini, şirəsini kitab səhifələrinə sıxaraq oxucularına ərməğan edib.

Bu yazını hazırlayarkən övladları Ruslan və Leyla ilə zəngləşib danışdıq, sevə-sevə andıq onu. Qeyd etməyi borc bilirəm ki, onlar Salam Qədirzadənin ədəbi irsini böyük məhəbbətlə qoruyurlar.

***Ə.NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

# Könül dünyamızı gözəlləşdirən Könül Xasıyeva





**Muğam heç zaman suyu qurumayan dəryaya bənzəyir. Beynəlxalq Muğam Mərkəzi kimi tanınan möhtəşəm sənət məbədi bir çox muğam müsabiqələrinə, yaradıcılıq gecələrinə şahidlik edib. Bizə ana laylası qədər əziz və doğma olan muğamlar buradan qanadlanıb, pərvaz edib. Bu dəfə mərkəz özünəməxsus ifa tərzi ilə muğamsevərlərin rəğbətini qazanmış Könül Xasıyevanın yaradıcılıq gecəsinə ünvan oldu.**

Əlli beş yaşını qeyd edən Könül Xasıyeva 1981-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə təşkil olunmuş "Gənclərin ümumrespublika baxış – müsabiqəsi”ndə qalib gəlib. 1981–1986-cı illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Xalq artisti Şövkət Ələkbərovanın, daha sonra Konservatoriyada Xalq artisti Arif Babayevin tələbəsi olub. On ilə yaxındır ki, o, özü də Xalq artistidir. Həm də 2018-ci ildə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Tədbiri giriş sözü ilə açan tarzən, Əməkdar artist Valeh Rəhimov Könül Xasıyevanın yaradıcılığı ilə bağlı fikirlərini bölüşdü. Əməkdar artist, muğam ifaçısı Nuriyyə Hüseynova Könül Xasıyevanı uşaqlıq və gənclik illərindən tanıdığını, o vaxtdan aralarında sıx dostluq əlaqələrinin olduğunu dedi.

Musiqiçi, heykəltəraş və rəssam Vədud Müəzzin ərsəyə gətirdiyi, Könül xanımın surətinin əks olunduğu portreti ona hədiyyə etdi.

Könül Xasıyeva yaradıcılıq gecəsinin təşkilinə görə təşəkkürünü bildirdi.

Tədbir “Gecələr” ansablının müşayiəti ilə səbəbkarın və musiqili qonaqların ifasında bir-birindən gözəl muğam nümunələri ilə davam etdi. Bədii qiraət ustası, Əməkdar artist Ağalar Bayramov oxuduğu şeirlərlə tədbirə əlavə rəng qatdı.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto),***
***“Xalq qəzeti”***

# “Gənc türk yazarlar”ın yetirməsi

**Beynəlxalq Muğam Mərkəzində şair-publisist Əkbər Qoşalının 50 illik yubileyinə həsr olunmuş yaradıcılıq gecəsinə onun dostları, qələm yoldaşları toplaşmışdılar.**

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qonaqları, o cümlədən türkdilli ölkələrdən gələrək tədbirə qatılan şeir-sənət adamlarını salamlayaraq, yubilyar haqqında fikirlərini dilə gətirdi. TÜRKSOY Yazarlar Birliyinin sədr müavini Səlim Babullaoğlu bildirdi ki, 25 il öncə təsis edilmiş “Dünya Gənc Türk Yazarlar Birliyi”nin yaradıcısı olan Əkbər Qoşalı qardaş xalqlar arasında ədəbi əlaqələrin möhkəmlənməsi sahəsində dəyərli fəaliyyət göstərib.

Digər çıxışçılar qeyd etdilər ki, Əkbər Qoşalı yazıb-yaratmaqla yanaşı, ədəbiyyatımızın ardıcıl şəkildə təbliğinə, türkdilli ölkələr və xalqlar arasında ədəbi mübadilə işinin təşkilində fəal iştirak edib və çoxlu uğurlar qazanıb.



Tədbirdə Əməkdar artist Nuriyə Hüseynovanın və digər sənət adamlarının, həmçinin gənc aşıqların ifasında Əkbər Qoşalının sözlərinə yazılmış mahnılar ifa olundu.

***F.HÜQUQQIZI, “Xalq qəzeti”***


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
## Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il aprelin 12-dən mayın 16-dək davam edəcəkdir.

***Fəlsəfə doktoru proqramı üzrə:***

**Doktorantura (dövlət sifarişli və ödənişli əsaslarla):**

Təsviri sənət 6215.01 –əyani, 1 yer
Dekorativ-tətbiqi sənət 6218.01 –əyani, 1 yer
Dekorativ-tətbiqi sənət 6218.01 –qiyabi, 1 yer

**Dissertantura (büdcə hesabına və ödənişli əsaslarla):**

Təsviri sənət 6215.01 – 2 yer
Dekorativ-tətbiqi sənət 6218.01 – 1 yer

**Əlaqə nömrəsi – 0125679183.**
**Ünvan – Bakı, H.Əliyev prospekti 26.**

***Rektorluq***



## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

*Dübəndi Neft Terminalı 1 saylı körpüsündə 2 ədəd iki dayaqlı metal zərbəqaytaranın hazırlanması üçün mal-materialların satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 3 may 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (+994 12) 599 00 03 (daxili 3704).
Ünvan – AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

KİTAB TƏQDİMATI

# “Bəşəriyyətə şölə saçan teatr günəşi”



**Azərbaycan teatrı həmişə ictimai fikrin ön sıralarında dayanaraq cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına böyük töhfələr verib. Xalqımızın mədəni sərvəti olan teatrın qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas istiqamətlərindəndir. 2023-cü ildə yaradılmasının 150 ili tamam olan Azərbaycan peşəkar milli teatrı ilə bağlı bir sıra tədbirlər təşkil edilir.**

Yasamal rayonundakı Heydər Əliyev Mərkəzində milli teatrın yaradılmasının 150 illiyi çərçivəsində yazıçı-publisist Reyhan Mirzəzadənin məşhur rus dramaturqu A.N.Ostrovskinin 200 illik yubileyinə həsr etdiyi “Bəşəriyyətə şölə saçan teatr günəşi” adlı kitabının təqdimatı keçirilib.

Tədbirdə çıxış edən Yasamal Rayon Mərkəzləşmiş Kitab Sisteminin direktoru Lətifə Məmmədova ədəbi fikir tariximizin görkəmli nümayəndələrinin xalqa müraciət üçün teatr səhnəsindən yüksək xitabət kürsüsü kimi istifadə etdiklərini diqqətə çatdırıb. L.Məmmədova qeyd edib ki, A.N.Ostrovski rus ədəbiyyatında bütün həyatını dramaturgiyaya həsr edən yeganə yazıçıdır və o, milli realist teatrın, dramaturgiyanın yaradıcılarından biridir.

Kitabın redaktoru, yazıçı-publisist Zöhrə Əsgərova bildirib ki, R.Mirzəzadə rus ədəbiyyatının qüdrətli sənətkarları A.S.Puşkin, M.Y.Lermontov, İ.A.Krılov, N.V.Qoqol, V.A.Jukovski, N.A.Nekrasov, İ.S.Turgenev, F.M.Dostoyevski, L.N.Tolstoy, N.Q.Çernışevski, A.P.Çexov, M.Qorki, V.V.Mayakovski, A.Axmatova və digər yazarların yaradıcılığını, fəlsəfi baxışlarını, vətəndaş mövqelərini dərindən öyrənərək oxuculara təqdim edib.

Kitabın müəllifi Reyhan Mirzəzadə A.N.Ostrovskinin həyatı və zəngin yaradıcılığının bəşəriyyətə sədaqətlə xidmət nümunəsi olduğunu bildirib: “İstedadlı dramaturq bütün ruhu, zehni, qəlbi, mənəviyyatı ilə hər zaman rus xalqının həyatına bağlı bir şəxsiyyət olub. O, bütün yaradıcılığı boyu yanar ürəklə bərabər, yanar zəkanı da tərənnüm edib. Ostrovskinin zəngin məfkurəsi, qiymətli irsi bəşəriyyətin qəlbində silinməz izlər qoyub.

Onun “Cehizsiz qız”, “Tufan” və başqa əsərləri uzun illər Azərbaycan səhnəsində özünəməxsus yer tutub. Eyni zamanda, yeni aktyor nəslinin yetişməsində də bu tamaşaların əvəzsiz rolu olub. A.N.Ostrovskinin əsərləri Azərbaycan teatrının inkişafına öz mühüm təsirini göstərib, bu gün də göstərməkdədir. Bu kitab rus teatrının çətin, mübarizəli yollarından bəhs edir”. Müəllif, eyni zamanda, dramaturqun Bakı səfərindən də tədbir iştirakçılarına məlumat verib.

Daha sonra Milli Məclisin deputatı, Azərbaycan-Rusiya parlamentlərarası işçi qrupunun üzvü Aydın Mirzəzadə, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktrisası, Xalq artisti Natalya Şarovskaya, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Nofəl Vəliyev, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının truppa müdiri Ələsgər Muradxanlı, Rusiyanın Azərbaycandakı səfirliyinin birinci katibi Pavel Kuznetsov, Azərbaycan Dövlət Akademik Dram Teatrının ədəbi hissə rəhbəri Çingiz Ələsgərli, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının rejissoru İradə Gözəlova çıxış edərək müəllifi təbrik ediblər, ona xoş arzularını bildiriblər. Sonra A.N.Ostrovskiyə aid videoçarxlar nümayiş olunub.

Bədii hissədə aktrisa Natalya Şarovskaya A.N.Ostrovskinin “Krasaves mujçina” və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi “Tufan” əsərindən monoloqları təqdim edib.

***H.FİDAN,***
***“Xalq qəzeti”***

İDMAN XƏBƏRLƏRİ



### “Azərreyl” və “Abşeron” finalda

***Qadın voleybolçuların ölkə birinciliyində ikinci finalçı bəlli olub. Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətindən aldığımız məlumata görə, Yüksək Liqada yarımfinalın son matçı keçirilib. Voleybol Mərkəzində təşkil olunan görüşdə “Abşeron” və “Murov” klubları üz-üzə gəliblər.***

Qeyd edək ki, bundan əvvəl həmin komandaların ilk iki oyununda tərəflər hərəyə bir qələbə qazandığından əlavə oyuna ehtiyac yaranmışdı. Həlledici olan bu qarşılaşmaya “Abşeron” daha yaxşı başlayıb və ilk setdə çətinlik çəkmədən qalib gəlib – 25:16. Bu üstünlüyünü sonadək qoruyan “Abşeron” klubu “Murov”un ciddi müqavimətinə baxmayaraq, növbəti hissələri 25:21 hesabları ilə öz xeyrinə yekunlaşdırıb və meydandan 3:0 hesablı qələbə ilə ayrılıb.

Beləliklə, rəqibi üzərində iki qələbə qazanan “Abşeron” finala vəsiqə qazanıb. Komanda çempionluq yolunda “Azərreyl”ə rəqib olub. “Murov” isə bürünc medal uğrunda UNEC-ə qarşı yarışacaq.

Qeyd edək ki, ölkə birinciliyinin reqlamentinə əsasən, final və üçüncülük oyunları 3 qələbəyədək davam edəcək. Bu mərhələnin qarşılaşmalarının keçiriləcəyi tarixlə bağlı əlavə məlumat veriləcək.

### Doğma meydanda qələbə

***Futbol üzrə Misli Premyer Liqasında XXIX tur start götürüb. Turun ilk matçında “Qəbələ” klubu doğma meydanda “Zirə”ni qəbul edib. Qəbələ şəhər stadionunda oynanılan matç meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.***

“Qəbələ”nin qollarını Roman Maçado və Ruan Renato, “Zirə”nin qolunu isə Eldar Quliyev vurub. Bu qələbədən sonra xallarının sayını 39-a çatdıran “Qəbələ” “Zirə”ni qabaqlayaraq turnir cədvəlində dördüncü pilləyə yüksəlib. 38 xal toplayan “Zirə” isə beşinci sırada qərarlaşıb.



Dünən isə XXIX turun daha iki matçı baş tutub. “ASCO Arena”da keçirilən günün ilk matçında “Səbail” “Sabah”ı 2:1 hesabı ilə məğlub edib. Bu qələbədən sonra 65 xala malik “Sabah” turnir cədvəlində ikinci pillədədir. Xallarının sayını 21-ə çatdıran “Səbail” isə 9-cu yerdədir. Günün son oyununda isə “Sumqayıt” doğma meydanda “Neftçi”ni qəbul edib. Görüş qonaqların 4:0 hesablı qələbəsi ilə bitib. Bununla da 60 xal toplayan “Neftçi” üçüncü pilləyə yüksəlib. 24 xala malik “Sumqayıt” isə 8-ci sıradadır.

Qeyd edək ki, tura bu gün “Turan Tovuz”- “Şamaxı” və “Qarabağ” – “Kəpəz” görüşləri ilə yekun vurulacaq.

***Elçin ABBASOV, “Xalq qəzeti”***

*Yurdumuzun nemətləri*

# *Naxçıvan kətəsi yazda daha ləziz olur*

## *Qədim diyarda beşinci dəfə onun şərəfinə festival keçirildi*



**Yaz fəslində xalqımızın ləzzətlə yediyi nemətlərdən biri də dadı damaqlardan getməyən, təzə-tər göyərtidən hazırlanan kətədir. Mətbəx ustalarının “göy qutabı” adlandırdığı kətə Naxçıvanda da çox sevilir və yerli özünəməxsusluqla hazırlanır.**

Naxçıvan kətəsi çöl-bayırda bitən şomu, çiriş, gicitkən, qazayağı, quzuqulağı, əvəlik və digər pencərlərdən hazırlanır, zəngin tərkibi və müalicəviliyi ilə seçilir. Son illərdə ailə təsərrüfatlarının məşguliyyətində də yer tutmağa başlayan kətəhazırlama yeni bir mətbəx təntənəsinin də əsasını qoyub.

Artıq beşinci dəfə Naxçıvan şəhərində keçirilən “Kətə” festivalı milli mətbəximizin yaşadılması və tanıdılması baxımdan yerli əhalinin böyük marağına səbəb olur, yaxın-uzaqlarda da əks-səda doğurur.

Aprelin 7–8-də Naxçıvan şəhərində yerləşən “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Kətə” festivalında bu dəfə 200-ə yaxın kətəçi iştirak edib. Müxtəlif yabanı göyərti növlərindən hazırlanan, təndirdə, sac üzərində, yagda bişirilən kətələr, dürməklər iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Festival çərçivəsində Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təqdimatı ilə 90-a yaxın qadının 3 mindən artıq, Naxçıvan Biznes Mərkəzinin cəlb etdiyi 15 yerli sənətkarın isə 84 adda əl işi satışa çıxarılıb.

Festivalda muxtar respublikanın istehsal müəssisələri və iaşə obyektləri də sakinlərə və qonaqlara xidmət göstərib. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin təşkil etdiyi konsertlər isə festivala çal-çağır əhvalı gətirib.

Şənliyin ikinci günü “Ən dadlı kətə” nominasiyası üzrə müsabiqə də təşkil edilib. Münsiflər heyəti tərəfindən görünüşünə, çeşid müxtəlifliyinə və dadına görə ən yaxşı kətə bişirən 3 nəfər I yer, 3 nəfər II yer, 3 nəfər isə III yerə layiq görülüb. Qaliblərə diplomlar təqdim olunub.

**S.HƏSƏNOV,**
**“Xalq qəzeti”**

**Naxçıvan**

# Sürücüsüz avtobuslar dövrü başlayır

**Gələn aydan etibarən dünyada ilk dəfə olaraq sürücüsüz avtobus xidməti fəaliyyətə başlayacaq. Şotlandiyada “Stagecoach” şirkəti tərəfindən həyata keçiriləcək ilk sərnişindaşıma mayın 15-də baş tutacaq. Xəbəri “bbc.com” saytı verib.**

Məlumata görə, avtobuslar əvvəlcədən seçilmiş yollarda saatda 80 kilometrə qədər sürətlə hərəkət etməyə imkan verən xüsusi sensorlarla təchiz ediləcək. Avtobuslarda qəza və ya arzuolunmaz hadisələrin qarşısını almaq üçün iki personal olacaq. Həmin şəxslər lazım olan zaman idarəetməni ələ ala bilsə də, onların əsas işi bilet və sərnişinlərin müraciətləri ilə məşğul olmaqdır. Edinburqa 22 kilometrlik marşrut üzrə hərəkət edəcək avtonom avtobuslar həftədə təxminən on min sərnişin daşıyacaq.

Qeyd edək ki, Şotlandiya Hökumətinin nəqliyyat naziri Kevin Stevart bildirib ki, qlobal əhəmiyyətli layihə ictimai nəqliyyat üçün faydalı olacaq və Şotlandiyanın dünya miqyasında reputasiyasına kömək edəcək.




***Əfsanə ƏHƏDLİ,***
***“Xalq qəzeti”***

## HAVA PROQNOZU

✓ ***Aprelin 9-da***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 8-11°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Gecə 7-12°, gündüz 19-24° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 3-8°, gündüz 11-16° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 2-7°, gündüz 10-15° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 6-10°, gündüz 17-22° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 5-10°, gündüz 15-20° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 6-10° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 6-11°, gündüz 20-25° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 8-11°, gündüz 17-22°, dağlarda gecə 6-8°, gündüz 13-17° isti olacaq.

# Elmmetriya problemləri üzrə araşdırmalar

**Bu il İnformasiya Texnologiyaları İnstitutunda rəqəmsal transformasiyalar və informasiya cəmiyyətinin formalaşmasının elmi-nəzəri əsaslarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində elektron elmin formalaşması və elmmetriya problemləri üzrə araşdırmalar aparılacaq.**

İnstitutdan mediaya verilən açıqlamada bildirilib ki, bu sahədə “E-kitabxanaların metaverilənləri əsasında elmmetrik qiymətləndirmə meyarlarının tətbiqi ilə intellektual informasiya sistemi konsepsiyasının işlənilməsi”, eləcə də “Azərbaycanda intellektual e-kitabxanaların formalaşması problemləri və həlli yolları” mövzuları işləniləcək.

***“Xalq qəzeti”***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 821
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00